QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 220 (5451) 1 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Regionların inkişafı davamlı sosial-iqtisadi tərəqqinin təntənəsidir

*İlham Əliyev: "Ölkəmizin inkişafı, eyni zamanda bölgələrin inkişafından keçir"*



Səh 4

"Azərbaycan ilə Pakistan bütün məsələlərlə bağlı daim bir-birini dəstəkləyir"



2

Əli Əhmədov: "qeyri-rəsmi məşğulluq əhalinin sosial hüquqlarının pozulmasına yol açır"



5

Nazirlər Kabinetinin növbəti il üçün iş planının müzakirəsinə həsr olunmuş geniş iclası keçirilib



5

Bakıda Azərbaycan-Pakistan-Türkiyə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirilib



6

Mübariz Qurbanlı: "Məzar yerləri satılmır və insanlara pulsuz verilməlidir"



5

Əfqanıstan Prezidenti Azərbaycana işgüzar səfərə gəlib



7

14

Müxalifətin mühacir biznesi iflasa uğrayır



12

Bakıda "İslam həmrəyliyinin güclənməsində medianın rolu" mövzusunda konfrans keçirilib



16

Daniel Rikkardo: Bakı treki Formula-1 çempionatının ən ecazkar trasıdır



# “Azərbaycan ilə Pakistan bütün məsələlərlə bağlı daim bir-birini dəstəkləyir”

## *Prezident İlham Əliyev Pakistanın xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Pakistan İslam Respublikasının xarici işlər naziri Xavaca Məhəmməd Asifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Pakistan ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu vurğuladı, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin, qarşılıqlı dəstəyin önəmini qeyd etdi və bu əlaqələrin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin rolunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Pakistan bütün məsələlərlə bağlı daim bir-birini dəstəkləyir, siyasi, iqtisadi, ticarət, hərbi əməkdaşlıq əlaqələri yaxın müttəfiqlər səviyyəsində inkişaf edir. Prezident İlham Əliyev dedi ki, Pakistan bizim üçün ən yaxın müttəfiq və dost ölkələrdəndir. Dövlətimizin başçısı Pakistanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini müdafiə etməsini yüksək qiymətləndirdi. Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatına toxunan dövlətimizin başçısı bu əməkdaşlığın müxtəlif sahələrdə əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini əminliklə vurğuladı.



Pakistan İslam Respublikasının xarici işlər naziri Xavaca Məhəmməd Asif ölkələrimiz arasında çox yaxın qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, hərbi və digər sahələrdə uğurla inkişaf etdiyini, əməkdaşlığımızın daha da genişlənməsi üçün yaxşı imkanların olduğunu vurğulayan qonaq beynəlxalq təşkilatlarda ölkələrimizin bir-birinə verdiyi qarşılıqlı dəstəyin önəmini qeyd etdi. Pakistanlı qonaq Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatının sabitliyin, regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. O, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı Pakistanın beynəlxalq təşkilatlar çərçivəsində qardaş Azərbaycanın mövqeyini dəstəklədiyini vurğuladı.

Söhbət zamanı “Asiyanın Qəlbi - İstanbul Prosesi” konfransının Əfqanıstanda sabitlik və inkişafa nail olunması işinə böyük töhfə verdiyi qeyd olundu.

# Prezident İlham Əliyev Hindistanın xarici işlər üzrə dövlət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Hindistan Respublikasının xarici işlər üzrə dövlət naziri Mobaşar Caved Akbarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini vurğulayan Hindistanın xarici işlər üzrə dövlət naziri Mobaşar Caved Akbar dedi: “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Sizin rəhbərliyinizlə ölkənizdə əldə edilən sabitlik və inkişafla bağlı Hindistanın Baş naziri, rəhbərliyi və xalqı adından Sizi təbrik edirəm”.***



Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanın müstəqillik illərində böyük uğurlar əldə etdiyini, sabit və sürətlə inkişaf edən ölkəyə çevrildiyini vurğuladı. Dövlətimizin başçısı Hindistan Respublikasının xarici işlər üzrə dövlət naziri Mobaşar Caved Akbarın ölkəmizə bu səfərinin ikitərəfli münasibətlərimizin perspektivlərinin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Söhbət zamanı “Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində Bakıda keçiriləcək Nazirlər Konfransının regional əməkdaşlığın gücləndirilməsi, Əfqanıstana beynəlxalq səviyyədə göstərilən dəstəyin artırılması baxımından önəmi qeyd edildi.

# "Azərbaycan və Türkiyə regional əməkdaşlığa böyük töhfə verir"

## *Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkiyə xarici işlər naziri ilə birlikdə bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştiraklarını məmnunluqla xatırladı.***

Azərbaycanın və Türkiyənin regional əməkdaşlığa verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev bu baxımdan bütün üçtərəfli əməkdaşlıq formatlarında ölkələrimizin iştirak etməsinin önəmini qeyd etdi və bildirdi ki, bu, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edən təşəbbüslərdir. Dövlətimizin başçısı bu gün keçirilən Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli görüşünü də yaxşı hadisə kimi dəyərləndirdi.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Mövlud Çavuşoğlu bir ay bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə bağlı keçirilən mərasimlərdə iştiraklarını xatırladı və bu tədbirdən Türkiyənin qürur duyduğunu vurğuladı. O, gələcəkdə Azərbaycanın Türkiyə ilə birgə həyata keçirəcəyi böyük layihələrin, o cümlədən TANAP layihəsinin önəmini qeyd etdi. Mövlud Çavuşoğlu iki dövlət başçısının liderliyi sayəsində ikitərəfli münasibətlərimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğuladı. Qonaq Azərbaycan və Türkiyənin iştirakı ilə üçtərəfli formatda həyata keçirilən iş birliyinin regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə, bölgədə sabitliyin və iqtisadi inkişafın genişləndirilməsinə xidmət etdiyini dedi.

Söhbət zamanı "Asiyanın Qəlbi - İstanbul Prosesi" konfransının Azərbaycanda keçirilməsinin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi vurğulandı. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş etdi.

# Bakıda Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin görüşü olub

***Azərbaycan Respublikası, Pakistan İslam Respublikası, Türkiyə Respublikasının xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü çərçivəsində noyabrın 30-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki qardaş dövlət arasında əməkdaşlığın bütün sahələrdə və müxtəlif formatlarda yüksək səviyyəli inkişafından, siyasi əlaqələrin strateji müttəfiqlik səviyyəsindən məmnunluq ifadə edilib.

Nazirlər dövlət başçılarının qarşılıqlı səfərlərini, o cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari il oktyabrın 20-də İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirakını və bunun ardınca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində iştirak etmək üçün Bakıya səfərini xüsusi vurğulayıblar.

Görüşdə hər iki ölkə prezidentinin iştirakı ilə bu yaxınlarda Bakıda keçirilmiş Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının nəticələri təqdir edilib və gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər hər iki ölkənin iştirakçısı olduğu Qərb-Şərq nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd edərək, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin regionun inkişafına və layihənin imkanlarından istifadə edəcək dövlətlər arasında əməkdaşlığın, insanlararası təmasların və ticarət dövriyyəsinin artmasına mühüm töhfə verəcəyinə əminlik ifadə ediblər.



Nazirlər hər iki ölkənin iştirakçısı olduğu "Asiyanın Qəlbi" - İstanbul Prosesinin və bu çərçivədə Azərbaycanın ev sahibliyi etdiyi 7-ci nazirlər konfransının əhəmiyyətini qeyd ediblər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə zidd olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun bütün region üçün ciddi təhlükə mənbəyi olduğunu bildirib və münaqişənin həlli istiqamətində aparılan son danışıqlar prosesi barədə həmkarına məlumat verib. Nazirlər, həmçinin Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə və Azərbaycan-Türkmənistan-Türkiyə üçtərəfli formatlarının uğurla inkişaf etdiyini qeyd ediblər və Azərbaycan-Türkiyə-Pakistan formatının da ölkələrimiz arasında əməkdaşlığın inkişafını təşviq edəcəyini və mühüm platformaya çevriləcəyinə ümidvar olduğunu bildiriblər. Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinin əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın Prezidenti Klaus Verner İohannisə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Rumıniyanın milli bayramı - Birlik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Rumıniyanı strateji tərəfdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, daim genişlənən dostluq əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada müvəffəqiyyətlə davam edən əməkdaşlığımız bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir. Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

***

Prezident İlham Əliyev Sabirabad şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Regionların inkişafı davamlı sosial-iqtisadi tərəqqinin təntənəsidir

*İlham Əliyev: "Ölkəmizin inkişafı, eyni zamanda bölgələrin inkişafından keçir"*

**Güclü iqtisadiyyat güclü, rəqabətədavamlı və keyfiyyətli istehsaldan başlayır. Bu baxımdan, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində respublikamız dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Son 14 ildə dövlət başçısının uğurla həyata keçirdiyi siyasət Azərbaycanı regionda ən sürətlə inkişaf edən və məqsədlərinə doğru inamla irəliləyən dövləti kimi tanıdıb.**

Xüsusilə, son illər artan iqtisadiyyat, gündən-günə abadlaşan, müasirləşən paytaxt və bölgələrimiz, yeniləşən infrastruktur Azərbaycanın reallıqlarıdır. Dövlət başçısı İlham Əliyevin regionlara müntəzəm səfərləri şəhər və kəndlərimizin ildən-ilə abadlaşmasına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

"Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin." Dövlət başçısı İlham Əliyevin vaxtilə söylədiyi proqram xarakterli bu tezis bugünün reallıqlarında öz əksini tapıb.

Azərbaycan Prezidenti İlham Əliyev bölgələrə səfərləri zamanı çıxışlarında bildirir ki, bu gün Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən müstəqil, azad, öz resurslarına güvənən ölkədir. İqtisadi potensialın gücləndirilməsinə yönəldilmiş addımlar, eyni zamanda, Azərbaycanın müstəqilliyini möhkəmləndirən amillərdir. Azərbaycanın hazırda istənilən böyük maliyyə resursları tələb edən layihələri öz gücü hesabına icra etmək imkanının olması da bugünkü uğurlara və inkişafa əsaslanır.







Son illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin müntəzəm olaraq regionlara səfərlər etməsi, insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

## Hər zaman vətəndaşların yanında olan Prezident

Bu faktı, xüsusi olaraq qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən və beləliklə, Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyini əsas götürmüşdür.

Prezident İlham Əliyevin regionlara son səfərləri zamanı vətəndaşlarla keçirilən görüşlərdə də onların problemlərini şəxsən dinləməsi deyilənlərin məntiqi nəticəsidir.

Son on dörd ildə əldə olunan uğurlara diqqət yetirsək, görərik ki, Azərbaycanda heç vaxt qısa zaman ərzində bu qədər iş görülməyib. Xüsusilə, infrastruktur layihələrinin reallaşdırılması, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub və həmin siyasətin sayəsində ölkəmizdə son 6 ay ərzində iqtisadiyyatda 1,7 faiz artım qeydə alınıb, qeyri-neft sektorunda 4,4 faiz, kənd təsərrüfatı sahəsində 2 faiz artım mövcuddur. Ən mühüm məsələlərdən biri, heç şübhəsiz ki, ixrac potensialımızın genişləndirilməsi, idxaldan asılılığın azaldılması ilə bağlıdır. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində ölkəmizin ixracatında son 6 ay ərzində 36 faizlik artım qeydə alınıb və xüsusilə, qeyri-neft ixracatında 27 faiz artım var, idxaldan asılılıq isə 15 faiz azalıb.

Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətdir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək.

Beləliklə, Prezident İlham Əliyevin regionlara hər bir səfəri gələcək uğurlarımızın başlanğıcıdır. 2017-ci il bu baxımdan - iqtidar xalq birliyinin möhkəmlənməsi, regionların sosial-iqtisadi inkşafı, xalqımızın həyat şəraitinin daha da yaxşılaşması, nailiyyətlərimizin artması baxımından əlamətdardır. Ölkə başçısı Cənab İlham Əliyevin düşünülmüş düzgün siyasəti, öz xalqına sonsuz qayğısı və məhəbbəti, eləcə də, Azərbaycan xalqının öz Prezidentinə etimadı və inamı, sözsüz ki, bundan sonrakı illərimizi daha mənalı və daha yaddaqalan edəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**



## Əli Əhmədov: “qeyri-rəsmi məşğulluq əhalinin sosial hüquqlarının pozulmasına yol açır”

Qeyri-rəsmi məşğulluq əhalinin sosial hüquqlarının pozulmasına yol açır və bu halların aradan qaldırılması üçün prioritetlər müəyyənləşdirilib. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Baş nazirinin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-rəsmi məşğulluqla bağlı Nazirlər Kabinetində keçirdiyi brifinqdə deyib.

Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirildiyini bildirən Əli Əhmədov qeyd edib ki, bununla bağlı müvafiq layihələr hazırlanıb, sahibkarlarla görüşlər təşkil edilib və onlar arasında əmək münasibətlərinin tənzimlənməsinə dair maarifləndirmə işləri aparılıb.

Məlumat verilib ki, 2003-cü ildən indiyədək təxminən 1,9 milyon iş yeri yaradılıb. 2000-ci ildə yoxsulluq səviyyəsi təqribən 50 faiz təşkil edirdisə, hazırda bu rəqəm 4-5 faizədək azalıb. Bu, çox böyük nailiyyətdir. Yeni iş yerlərinin yaradılması rəsmi məşğulluğun daha da artmasında mühüm rol oynayır.

Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycanda iş qabiliyyəti olan əhalinin sayı təxminən 5 milyon nəfər təşkil edir, bunun da təxminən 4,7 milyon nəfəri hazırda məşğul əhalidir. Onların təxminən 1,5 milyon nəfəri muzdla işləyir, 1,7 milyon nəfəri isə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərir. Yerdə qalan əhali isə əmək fəaliyyəti ilə qeyri-rəsmi formada məşğuldur.

“Rəsmi məşğul olan, vaxtlı-vaxtında vergisini ödəyən, Dövlət Sosial Müdafiə Fonduna ödənişləri həyata keçirən təxminən 1,5 milyon əhalinin 800 mindən çox hissəsi dövlət sektorunda, qalanları isə qeyri-dövlət sektorunda çalışır. Qeyri-rəsmi əmək fəaliyyəti ilə məşğul olanların böyük bir hissəsi vergidən yayınır, Dövlət Sosial Müdafiə Fonduna ödənişləri etmir. Bu da gələcəkdə onların pensiya almalarına ciddi əngəl törədir. Həmçinin “qara mühasibatlıq” deyilən bir anlayışın da mövcudluğuna şərait yaranır”, - deyə Ə.Əhmədov vurğulayıb. Baş nazirin müavini bildirib ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı qarşıda üç prioritet məsələ dayanır. Bunlardan birincisi əhalinin məşğulluğunu təmin etmək, ikincisi, onların hüquqlarının müdafiəsi, üçüncü prioritet məsələ isə qeyri-rəsmi məşğulluqdan rəsmi məşğulluğa keçid etməkdir. “Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı rəylər əsasında yenilənmiş Tədbirlər Planı” layihəsinin təsdiqlənməsi ilə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi bazanın yaradılması məsələləri ortaya çıxır. Əgər qanunverici aktlarda boşluqlar varsa, bunlar aradan qaldırılmalıdır. İşəgötürən şəxslər məhz bu boşluqlardan istifadə edərək qeyri-məşğulluq yaradır. Bunun qarşısını almaq üçün inzibati və cərimə mexanizmləri mövcuddur.

Dünyanın bir çox ölkələrində, o cümlədən Avropa ölkələrində qeyri-rəsmi məşğulluqla ciddi mübarizə aparılır. Bu barədə danışan Ə.Əhmədov deyib: “Biz onların təcrübəsindən yararlanırıq. Bununla bağlı hüquqi aktlar təkmilləşdirilməli, normativ baza yaradılmalı, təbliğat və nəzarət mexanizmləri işə salınmalıdır. Artıq bu istiqamətdə işlər görülür. 2021-ci ilədək sahibkarlıq sahəsində yoxlamalar aparılması dayandırılıb. Buna görə də bir çox iş yerlərində qeyri-rəsmi məşğulluqla bağlı araşdırmaların həyata keçirilməsi çətinləşib. Ancaq bütün bunlara baxmayaraq, biz monitorinqlər və digər nəzarət mexanizmləri vasitəsilə qeyri-rəsmi məşğulluq fəaliyyəti göstərən iş yerlərini araşdırıb üzə çıxarır, bu barədə müvafiq tədbirlər həyata keçirir, təbliğat aparırıq. Bu işdə mətbuat orqanlarının köməyi də xüsusi rol oynayır”.

Əli Əhmədov vurğulayıb ki, hazırda ticarət və xidmət sahələrində qeyri-rəsmi məşğulluğa daha çox rast gəlinir. Bu da əhalinin sosial hüquqlarının qorunmasını çətinləşdirir, vergidən yayınma hallarına yol açır, əmək münasibətlərinin tənzimlənməsinə maneçilik törədir.

Brifinq zamanı AZƏRTAC-ın mövzu ilə bağlı sualını cavablandıran Əli Əhmədov bildirib ki, Azərbaycan Hökuməti qeyri-rəsmi məşğulluqla bağlı bir sıra ölkələrin, o cümlədən Türkiyənin təcrübəsindən yararlanır, onlarla qarşılıqlı fikir mübadiləsi aparılır. Bu istiqamətdə Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq da mövcuddur.

## Nazirlər Kabinetinin növbəti il üçün iş planının müzakirəsinə həsr olunmuş geniş iclası keçirilib



Noyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin sədrliyi ilə Nazirlər Kabinetinin növbəti il üçün iş planının müzakirəsinə həsr olunmuş geniş iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni iş qaydasına əsasən, Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş və Azərbaycan Respublikası Prezidentinin aktları ilə ona həvalə olunmuş səlahiyyətlərin icrası və digər tədbirlərin həyata keçirilməsi üçün növbəti ildə görüləcək işlərin qabaqcadan planlaşdırıldığı vurğulanıb.

Bu məqsədlə iclasda növbəti il üçün Nazirlər Kabinetinin iş planına daxil olan təkliflərə baxılaraq müzakirə edilib və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nın müvafiq bəndinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üzrə illik iş planının təsdiq edilməsi barədə qərar qəbul edilib.

## Mübariz Qurbanlı: “Məzar yerləri satılmır və insanlara pulsuz verilməlidir”




“Məzarlıqlar haqqında” qanun layihəsi baxılması üçün hazırda Nazirlər Kabinetindədir. Layihə qəbul edildikdən sonra növbəti mərhələlərdə yeni ayrılacaq məzarlıqlar, insanların dəfn mərasimləri və s. məsələlər həmin qaydalarla tənzimlənəcək”. SİA-nın məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Bakı böyük şəhər olduğundan və burada milyonlarla insan yaşadığına görə məzarlıqlarda yer çatışmazlığı yarana bilər: “Bu hal yalnız bizim şəhərə aid deyil, bütün böyük şəhərlərdə bu cür hallarla qarşılaşılır. Qəbiristanlıqlar üçün yeni yer ayrılması istiqamətində işlər gedir. Bakı Şəhər İcra Hakimiyyəti bununla bağlı müvafiq tədbirlər görür. Məzar yerləri satılmır və insanlara pulsuz verilməlidir. Yeni qaydalarda bu tam aydın şəkildə öz əksini tapıb. Hətta dəfn xərcləri ilə əlaqədar dövlət sosial proqramlara uyğun olaraq vətəndaşlara yardımlar göstərir”.

M.Qurbanlı qeyd edib ki, gələcəkdə qaydalar təsdiq edilsə, müvafiq icra hakimiyyəti bununla məşğul olacaq: “Hətta Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə bəzi məsələlərdə nəzarət funksiyası verilə bilər. Məzarlıqlarda yerlərin ayrılması digər qurumların səlahiyyətinə aiddir. Həqiqətən elə qəbiristanlıqlar ola bilər ki, orada məzar yerləri obyektiv səbəbdən olmaya bilər”. O, Naxçıvanda məzar daşlarının forması ilə bağlı qərarın təsdiqlənəcək qaydalara uyğun olduğunu vurğulayıb: “Gələcəkdə Azərbaycanın digər yerlərində də məzar daşları Naxçıvandakı kimi olacaq. Burada islami dəyərlərə, milli adət-ənənələrə zidd heç nə yoxdur. Məzarlar biri digərindən kəskin şəkildə fərqlənə bilməz”.

## Azərbaycan-Pakistan strateji tərəfdaşlığı inkişaf edir

***Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 30-da Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli görüşü çərçivəsində pakistanlı həmkarı Xavaca Məhəmməd Asiflə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə 2017-ci ilin Azərbaycan və Pakistan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi ilə əlamətdar olduğu vurğulanıb, ölkələrimiz arasında təşəkkül tapmış ənənəvi mehriban dostluq münasibətlərinin və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. İkitərəfli əlaqələrin dərinləşdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Ermənistan-Azərbaycan münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyəti barədə qonağı məlumatlandıran E.Məmmədyarov 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasında Pakistanın sədrliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 822 saylı qətnamə qəbul edildiyini xatırladıb. O, Pakistan Hökumətinə Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə tutduğu ədalətli mövqeyə və münaqişənin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini beynəlxalq təşkilatlarda birmənalı şəkildə dəstəklədiyinə görə təşəkkür edib.



Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini vurğulayıblar. Azərbaycan və Pakistan arasında iqtisadi əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğu nəzərə alınaraq, iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasının və investisiyaların təşviqinə yönəlmiş birgə səylərin gücləndirilməsinin zəruriliyi qeyd edilib. İkitərəfli iqtisadi əlaqələrin daha da inkişafında Azərbaycan-Pakistan Birgə Komissiyasının və Azərbaycan və Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun fəaliyyəti yüksək qiymətləndirilib.

Həmçinin “Şimal-Cənub” nəqliyyat dəhlizinin maraqlı və yeni imkanlar vəd etdiyi bildirilib və bu xüsusda iki ölkənin nəqliyyat sahəsi üzrə mütəxəssislərinin görüşünün mümkünlüyü müzakirə edilib. Tərəflər Azərbaycan və Pakistan arasında hava uçuşlarının bərpası məsələsinin vacibliyinə də toxunublar.

Elmar Məmmədyarov Azərbaycanın EXPO-2025 sərgisinə ev sahibliyi etmək üçün Bakı şəhərinin namizədliyini irəli sürdüyü barədə həmkarına məlumat verib. Həmçinin nazirlər ilk iclası keçirilən Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli görüşünün ümumi maraq doğuran məsələlərin müzakirəsi və qarşılıqlı faydalı layihələrin işlənib hazırlanması baxımından əhəmiyyətli platforma olacağına ümidvar olduqlarını bildiriblər. İkitərəfli formatda dövlətlər arasında parlamentlər səviyyəsində mövcud pozitiv əməkdaşlıq ruhunun üçtərəfli səviyyədə də davam etdiriləcəyi və bunun dostluq əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcəyi vurğulanıb.

Söhbət zamanı “Asiyanın Qəlbi” - İstanbul Prosesinin və Proses çərçivəsində VII Nazirlər Konfransının əhəmiyyəti qeyd olunub.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
1 dekabr 2017-ci il

# Bakıda "Gənclər və dini icmalar: əməkdaşlıq və inkişaf" mövzusunda konfrans keçirilib



***Noyabrın 30-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gənclər və dini icmalar: əməkdaşlıq və inkişaf" mövzusunda konfrans keçirilib.***

AZƏRTAC xəbər verir ki, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda çıxış edərək mövzunun əhəmiyyətindən danışıb, gənclər və dini icmalar arasındakı qarşılıqlı əlaqələrin və bu məsələdə gənclərin rolunun önəmini bildirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini radikalizmə qarşı mübarizədə müxtəlif qurumlarla, o cümlədən gənclər təşkilatları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran Mübariz Qurbanlı Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu ilə müxtəlif xarakterli tədbirlərin həyata keçirildiyini qeyd edib. Bildirib ki, dini xurafat, dini radikalizm və ekstremizmə qarşı mübarizədə təbliğat işi daha yüksək səviyyəyə qaldırılmalıdır. Qafqaz Müsəlmanları İdarəsi və Dövlət Komitəsi müxtəlif dövlət qurumları ilə birlikdə bu sahədə geniş proqram həyata keçirir.

Azərbaycanda din amilindən istifadə edərək hər hansı formada qarşıdurma yaratmaq və yaxud ictimai-siyasi sabitliyi pozmağa cəhd etməyin mümkün olmadığını bildirən Dövlət Komitəsinin sədri ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, sovet dönəmində ölkəmizdə 17 məscid mövcud idisə, müstəqil Azərbaycanda hazırda 2000-dən artıq ibadət məkanı fəaliyyət göstərir. Respublikamızda 750-dən çox icma var ki, bunun da 28-ni qeyri-İslam icması təşkil edir. Azərbaycanda müxtəlif dini konfessiyalar sərbəst və azad şəkildə dini ayinlərini icra edirlər.

Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edildiyini bildirən Mübariz Qurbanlı bunu Azərbaycan Prezidentinin dinimizə və mənəvi dəyərlərimizə diqqət və qayğısının növbəti təzahürü kimi dəyərləndirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi altı il ərzində respublikamızın müxtəlif bölgələrində 4 minə yaxın layihəni maliyyələşdirdiyini vurğulayıb. F.Hacıyev onların arasında dini dözümlülük, tolerantlıq və dini maarifləndirmə ilə bağlı layihələrin də olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, respublikamızda beynəlxalq forumların keçirilməsi dünyada Azərbaycanın rolunu, ölkəmizə olan hörməti və inamı gündən-günə artırır. Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxışında bildirib ki, dünyada baş verən münaqişələrin fonunda Azərbaycan dövlətinin dini konfessiyalara münasibəti olduqca təqdirəlayiqdir. Prezident İlham Əliyev tərəfindən elan edilən "İslam Həmrəyliyi İli"nin sülhə xidmət etmək baxımından başlanğıc olduğunu vurğulayan Fəttah Heydərov Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin sərbəst və sülh şəraitində yaşadıqlarını bildirib. Deputat, eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Prezident yanında Gənclər Fondunun həyata keçirdiyi tədbirlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva qeyd edib ki, dünyada gedən proseslər, baş verən münaqişələr, terrorizm və dini ekstremizm halları gənclərə də təsir göstərir. Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü diqqətə çatdıran deputat ölkəmizdə multikulturalizmin həyat tərzinə çevrildiyini bildirib.

Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete, "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və "Asan Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyinin sədri Bəxtiyar İslamov və digərləri çıxışlarında Azərbaycanda multikultural mühitin inkişafında və təbliğində belə tədbirlərin əhəmiyyətini qeyd ediblər. Konfransda mövzu ətrafında müzakirələr aparılıb, rəy və təkliflər dinlənilib. Tədbir çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gənclər Fondu arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



# Bakıda Azərbaycan-Pakistan-Türkiyə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirilib

***Noyabrın 30-da Bakıda Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun, Pakistan İslam Respublikasının xarici işlər naziri Havaca Məhəmməd Asifin və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun iştirakı ilə Azərbaycan-Pakistan-Türkiyə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirilib.***

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi. Nazirlər Azərbaycan, Pakistan və Türkiyənin müvafiq regionlarda əhəmiyyətli və strateji rolunu vurğuladılar və üç ölkə arasında tarixi əlaqələri qeyd edərək, qarşılıqlı faydalı əməkdaşlıq baxımından ümumi bazanın və geniş potensialın mövcud olduğunu bildirdilər, regionda sabitlik, təhlükəsizlik və tərəqqinin irəlilədilməsi məqsədilə üçtərəfli tərəfdaşlığın inkişafında qəti maraqlarını ifadə etdilər.

Xarici siyasət idarələrinin rəhbərləri dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə qarşılıqlı hörmət və qəti dəstəyi bir daha bəyan etdilər və öz ərazilərindən bir-birlərinə qarşı fəaliyyət məqsədilə istifadə edilməyəcəyini vurğuladılar. Onlar yerləşdikləri müvafiq regionlarda münaqişələrin davam etməsinin təəssüf doğurduğunu bildirərək, günahsız mülki şəxslərin zərər görməsi və ərazi bütövlüyünə qarşı gücdən istifadə edilməsini qınadılar və bu münaqişələrin sülh, sabitlik və iqtisadi inkişafa mane olduğunu, beynəlxalq hüququn yuxarıda sadalanan prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında siyasi yolla həllini tələb etdiyini vurğuladılar.

İqtisadi artım və davamlı inkişaf yolu ilə üçtərəfli əməkdaşlığın, xüsusilə də üç ölkə xalqının rifahını təmin edəcək sahələrdə genişləndirilməsinin yeni yollarının üzə çıxarılması məqsədilə öz dövlətlərinin niyyətlərini qeyd etdilər.

İqtisadi və ticari əməkdaşlığın inkişaf etdirilməsi, bununla da sərmayə qoyuluşu və ticarətin təşviqi baxımından faktiki potensialı qarşılamaq məqsədilə səylərin gücləndirilməsini qərara aldılar. Birgə layihə və proqramlar vasitəsilə enerji, nəqliyyat, gömrük, kənd təsərrüfatı, telekommunikasiya, sənaye, ətraf mühit, təhsil, elm, mədəniyyət, turizm, idman və digər sahələrdə əməkdaşlığı daha da gücləndirmək qərarına gəldilər.

Nazirlər üç dövlət arasında enerji sahəsində enerji təhlükəsizliyinin artırılması, bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlıq imkanlarının araşdırılması və özəl sektora sərmayə qoyuluşu və ticarətin təşviq edilməsi baxımından üçtərəfli enerji dialoqunun əhəmiyyətini qeyd etdilər.

Strateji əhəmiyyətə malik irimiqyaslı nəqliyyat layihələrinin üç dövlətin iqtisadi inkişafı baxımından mənfəətli olacağına, Asiya və Avropa arasında rəqabətədavamlı daşımaları asanlaşdıracağına əminlik ifadə edərək, dəmir yolu, magistral və hava uzlaşdırılmasının inkişaf etdirilməsi məqsədilə üçtərəfli əməkdaşlığın vacibliyini vurğuladılar. Görüşdə müdafiə və təhlükəsizlik sahəsinin əhəmiyyəti vurğulandı və bu sahələrdə fəal əməkdaşlığın inkişafına hazırlıq ifadə edildi. Müvafiq beynəlxalq alətlər əsasında terrorizm, ekstremizm və separatizmin bütün forma və təzahürlərinin, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələr və prekursorlarının qeyri-qanuni istehsalı və alveri, qeyri-qanuni silah ticarəti, insan alveri, miqrant qaçaqmalçılığı və qeyri-qanuni miqrasiya, mədəni və tarixi irsə qarşı cinayətlər, çirkli pulların yuyulması, kibercinayətlər və digər transmilli təhlükəsizlik təhdidlərinə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsinə sadiqlik bir daha bəyan edildi.

Xalqlar arasında insanlararası təmasların daha da genişləndirilməsinə xidmət edəcək mədəniyyət, təhsil, səhiyyə sistemi və turizmin gücləndirilməsi, gənclərin mübadiləsi, turizm, idman və digər sahələr də daxil olmaqla, sosial və humanitar sahələrdə əməkdaşlığın əhəmiyyəti vurğulandı və bu sahələrdə birgə layihə və tədbirlərin təşəbbüskarı olmağa və təşviqinə hazırlıq ifadə edildi. Ümumi maraq kəsb edən regional və qlobal məsələlər ətrafında üç qardaş dövlət arasında mütəmadi məsləhətləşmələrin davam etdirilməsi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində maraq və buna hazırlıq bildirildi.

Nazirlər sülh, sabitlik və inkişaf naminə regional konsensusun inkişafına hədəflənmiş davam edən regional prosesləri vurğulayaraq, "Asiyanın Qəlbi-İstanbul Prosesi"nin bu vaxta qədər əldə etdiyi nailiyyətləri qiymətləndirdilər və İstanbul Prosesinə regional siyasi platforma kimi sadiqliklərini və bu çərçivədə etimad quruculuğu tədbirlərinin inkişaf etdirilməsinə sadiq olduqlarını bir daha bəyan etdilər və Əfqanıstanda əfqanların malik olduğu və əfqanların rəhbərlik etdikləri sülh və barışıq prosesinə dəstəklərini bir daha təsdiq etdilər. Üçtərəfli görüşlərin illik əsasda, əlifba sırası ilə üzv dövlətlərdə müntəzəm olaraq keçirilməsi barədə razılığa gəldilər.

Növbəti üçtərəfli görüşün 2018-ci ildə qarşılıqlı razılaşdırılmış tarixlərdə İslamabadda keçirilməsi barədə razılıq əldə edildi.

Görüşün sonunda Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirləri Bakı Bəyannaməsini imzaladılar.

# Azərbaycanda müasir tibb müəssisələri əhaliyə xidmət edir

## *İlham Əliyev:" 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın"*



**Müasir dövrümüzdə Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi də hər zaman diqqət mərkəzindədir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, bütün sahələrdə olduğu kimi, ölkə səhiyyəsi də yeni inkişaf mərhələsinə qədəm qoyub.**

Son illər Azərbaycanda əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Müxtəlif aspektlərdən səhiyyədə aparılan uğurlu islahatlar əhalini sağlamlığının təminatına, onun tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətlənib. Son illər ərzində paytaxtımızla yanaşı, regionlarda da yüzlərlə tibb ocağının və müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Bakı şəhərində və bütün rayonlarda yeni səhiyyə ocaqlarının tikintisinə 2004-cü ildən başlanılıb. Müalicə-diaqnostika mərkəzləri, mərkəzi rayon xəstəxanaları, ixtisaslaşmış xəstəxanalar yaradılıb. Bu gün səhiyyə sisteminin maddi-texniki bazası yüksək standartlara tam cavab verir. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 600-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib. Yeni istifadəyə verilən və təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən avadanlıqlar gətirilir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "indi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə və həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq."

### "AZƏRBAYCAN İQTİSADİYYATI İNKİŞAF EDİR, MALİYYƏ VƏZİYYƏTİMİZ SABİTDİR, SİYASƏTİMİZ SOSİALYÖNÜMLÜDÜR VƏ SOSİAL SAHƏNİN İNKİŞAFI BİZİM PRİORİTETİMİZDİR"

Görülən işlərin davamı olaraq bu günlərdə daha bir xəstəxana - Sabirabad rayonunda 205 çarpayılıq rayon mərkəzi xəstəxanası istifadəyə verilib. Ötən əsrin 70-ci illərində inşa olunan xəstəxananın binası yararsız vəziyyətə düşdüyündən, dövlət başçısının tapşırığı ilə yeni binanın tikintisinə başlanılıb. Bu tibb ocağı da cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, doğum, nevrologiya, anesteziologiya və reanimasiya, hemodializ, fizioterapiya, infeksion, poliklinika, təcili təxirəsalınmaz yardım şöbələri, klinik laboratoriya, şüa diaqnostika kabinetləri tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar, ilk növbədə, bir məqsədə - Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.

Xəstəxananın açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında bildirib ki, belə tibb müəssisələrinin tikintisi, əlbəttə ki, maliyyə vəsaiti tələb edir və bu, təmin olunur: "Azərbaycan iqtisadiyyatı inkişaf edir, maliyyə vəziyyətimiz sabitdir, siyasətimiz sosialyönümlüdür və sosial sahənin inkişafı bizim prioritetimizdir. Ölkəmizin bütün bölgələrində müasir xəstəxanalar istifadəyə verilib. Hesab edirəm, 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın. Gələn il təqribən altı yeni mərkəzi rayon xəstəxanası açılacaqdır. 2019-cu ildə qalan xəstəxanalar da istifadəyə veriləcək və beləliklə, Azərbaycanın hər bir şəhərində ən müasir tibbi xidmət göstəriləcək".

Əhalinin sağlamlığına artan diqqətin bir nümunəsi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə hər bir Azərbaycan vətəndaşının ildə bir dəfə müayinədən keçirməsidir. Müayinələr zamanı müəyyən xəstəliklərin aşkar olunduğu təqdirdə, proflaktik tədbirlərin həyata keçirilməsi insanların sağlamlığı üçün faydalı və əhəmiyyətlidir. Hər bir vətəndaş yaşadığı əraziyə yaxın olan tibb müəssisələrində tibbi müayinədən keçir. Bu, onu göstərir ki, əhalinin sağlamlığının qorunması Azərbaycan dövlətinin əsas hədəflərindəndir. İllərlə həkimə müraciət etməyənlər indi müayinələrə cəlb olunurlar. Bu baxımdan, reallıqlara söykənib, qətiyyətlə deyə bilərik ki, Azərbaycan səhiyyəsinin inkişafı bu gün ən yüksək səviyyədədi. Ölkəmizdə keyfiyyətli və səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar mövcuddur. Prezident İlham Əliyev çıxışında vurğuladığı kimi, Azərbaycan, hesab edirəm, yeganə ölkədir ki, burada hər bir vətəndaş dövlət hesabına ildə bir dəfə pulsuz müayinədən keçir: "Biz bu layihəyə bir neçə il bundan əvvəl başlamışıq. Hər il beş milyondan çox Azərbaycan vətəndaşı müayinədən keçir və artıq öz sağlamlığı və səhhəti ilə bağlı bütün bilgiləri alır. Bu, bizə imkan verir ki, xəstəliklər vaxtında müəyyən edilsin və lazımi müalicə də təyin olunsun. Belə gözəl tibb ocaqlarının yaradılması, əlbəttə ki, bizə bu təşəbbüsü irəli sürməyə imkan verdi. Çünki əgər şərait olmasaydı, biz bu proqramı icra edə bilməzdik".

Göründüyü kimi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şərait yaradılıb ki, bu da Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi siyasətinə uyğun olaraq, insan amili hər zaman yüksək tutulur. İnsan sağlamlığı və onun hərtərəfli təminatı istiqamətində ardıcıl işlər görülür.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Əfqanıstan Prezidenti Azərbaycana işgüzar səfərə gəlib



Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani noyabrın 30-da Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qanini hava limanında Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov, Azərbaycanın Türkmənistan və Əfqanıstandakı səfiri Həsən Zeynalov və digər rəsmi şəxslər qarşıladılar.

## "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" dilimizin və tariximizin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır



Noyabrın 30-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nın təkmilləşdirilmiş yeni variantının təqdimat mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması ilə bağlı tapşırıq və tövsiyələrini, sərəncamlarını xatırladıb. Dövlətimizin başçısının Azərbaycan dili ilə bağlı verdiyi sərəncamlara uyğun olaraq AMEA-nın ayrı-ayrı institut və təşkilatlarında ana dilimizin qorunması istiqamətində görülən işləri diqqətə çatdıran İ.Həbibbəyli bildirib ki, "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" da bunlardan biridir. Nəsimi adına Dilçilik İnstitutunun dialektologiya şöbəsi əməkdaşlarının hazırladıqları bu atlas müstəqillik dövrü Azərbaycan dilçiliyinin səviyyəsini göstərən ən qiymətli əsərdir. Akademik, həmçinin qeyd edib ki, atlas Naxçıvanda azərbaycanlıların aborigenliyini sübuta yetirən möhürdür və Azərbaycan torpaqlarına göz dikənlərə tutarlı cavabdır.

Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov dövlətimizin başçısının 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı xatırladıb. O, təqdim edilən atlasın həmin Dövlət Proqramının icrası çərçivəsində hazırlandığını diqqətə çatdırıb. Bildirilib ki, 308 səhifəlik atlas dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində tərtib olunub. Atlasda Naxçıvan Muxtar Respublikasının 151 yaşayış məntəqəsini əhatə edən 250 xəritə, hər xəritə üçün yazılmış xüsusi şərh, ekspedisiya müddətində informatorlarla söhbət zamanı çəkilmiş, həmçinin müasir Naxçıvanı, onun mənzərələrini, tarixini, etnoqrafiyasını, kulinariyasını əks etdirən şəkillər, atlasın tərtibində istifadə olunan proqram, tədqiq olunmuş yaşayış məntəqələrinin və müsahibəyə cəlb edilən informatorların siyahısı, içərisində informatorların səsi və səsli elektron kitab yerləşdirilən kompakt disk əksini tapıb. "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nda izoqlos yaradan dialekt xüsusiyyətləri xüsusi işarələrlə verilib, onların yayılma arealı müəyyənləşdirilib. B.Əsgərov atlasın nəşrə hazırlanmasında əməyi olanlara Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından minnətdarlığını bildirib.

Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin müdiri Kifayət İmamquliyevanın atlasla bağlı məruzəsi dinlənilib. Qeyd olunub ki, atlasın müəllif və tərtibçiləri Naxçıvan qrupu dialekt və şivələrini fonetik, qrammatik və leksik səviyyədə tədqiq ediblər. Nəşrin "Fonetika", "Qrammatika" ("Morfologiya" və "Sintaksis") və "Leksika" bölmələrindən ibarət üç hissəsi Azərbaycan Respublikasının üçrəngli bayrağı şəklində kitabın cildində əks olunub. Rənglər rəmzi məna daşımaqla yanaşı, bölmələrin asan müəyyənləşdirilməsinə xidmət edir. AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli, Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, professor Qəzənfər Kazımov çıxış edərək "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nın dilimizin və tariximizin öyrənilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

## Cinayət Məcəlləsində dəyişikliklər edilməsinə dair Qanunun qəbulu ilə əlaqədar Hərbi Prokurorluqda konfrans keçirilib



“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 2017-ci il 20 oktyabr tarixli Qanunun qəbulu ilə əlaqədar noyabrın 30-da Hərbi Prokurorluqda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini-Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev “Penitensiar sahədə fəaliyyətin



təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamını ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə qətiyyətlə davam etdirilən müstəqil dövlət və hüquq siyasətinin, insan hüquq və azadlıqlarına verilən yüksək dəyərin növbəti təzahürü olduğunu və qanunvericilik sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatların yeni mərhələsi hesab edildiyini bildirib. Diqqətə çatdırılıb ki, həmin Sərəncamın icrası ilə bağlı qəbul olunan və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsini nəzərdə tutan bu qanun bir neçə cinayətin, xüsusilə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətlərin dekriminallaşdırılmasını, bir sıra cinayət hüquq normalarının sanksiyalarına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunmasını, onların tətbiqi əsaslarının təkmilləşdirilməsini, yeni cəza növü kimi məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasının Məcəlləyə daxil edilməsini, zərərçəkmiş şəxslə barışıq institutunun daha da təkmilləşdirilməsini və digər məsələləri əhatə edib.

Hərbi prokuror qeyd edib ki, yeni qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilərək 18 cinayət əməli dekriminallaşdırılıb, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azadetmə müəyyən olunub. Həmçinin bir cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayət hüquq normasının sanksiyasına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması və 36 cinayətə görə azadlıqdan məhrumetmə cəzasının müddətinin azaldılması nəzərdə tutulub.

İnformasiya-kommunikasiya texnologiyaları şöbəsinin rəisi, ədliyyə kapitanı Səməd Əliyev “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli Qanununun mahiyyəti, məzmunu, qanunun qüvvəyə minməsi ilə əlaqədar onu tətbiq edən orqanların, o cümlədən prokurorluğun üzərinə düşən vəzifələr, Kadrlar və hüquqi təminat şöbəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri Firad Əliyev bu qanunla dekriminallaşdırılmış əməllər və onların müqayisəli təhlili, Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə mayoru Fərəc Sayılov sözügedən qanunla müəyyən edilmiş bəzi konkret maddələr üzrə cinayət məsuliyyətindən müvafiq qaydada azad edilmənin əsasları və onların təcrübədə tətbiqi və Dövlət ittihamının müdafiəsi üzrə şöbənin prokuroru, kiçik ədliyyə müşaviri İsmayıl Əliyev adıçəkilən qanunla sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzalar əlavə edilmiş və azadlıqdan məhrumetmə cəzasının müddətləri azaldılmış maddələr və onların təcrübədə tətbiqi barədə çıxışlar ediblər.

Çıxışlardan sonra qanunun düzgün və dönmədən tətbiqi ilə bağlı konfrans iştirakçıları arasında geniş fikir mübadiləsi aparılıb.

Konfransa yekun vuran Xanlar Vəliyev Prezident İlham Əliyevin verdiyi tapşırıqların, o cümlədən qeyd olunan Sərəncamın və qanunun vaxtında, tam və keyfiyyətli icrasını təmin etmək məqsədilə hərbi prokurorluq orqanları tərəfindən zəruri tədbirlərin görüldüyünü və onların davam etdiriləcəyini vurğulayıb.

## Bakıda Azərbaycan-Belarus işgüzar görüşü keçiriləcək

Belarus Respublikasının Qrodno şəhərinin iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində dekabrın 7-də Bakıda Azərbaycan-Belarus işgüzar görüşü keçiriləcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) AZƏRTAC-a bildiriblər ki, Belarus nümayəndə heyətinə Qrodno şəhərinin icra komitəsinin sədri Meçislav Qoy rəhbərlik edəcək. Tədbirə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 7 Belarus şirkətinin qatılacağı gözlənilir. İşgüzar görüş İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə baş tutacaq.

## Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirləri Bakıda birgə mətbuat konfransı keçiriblər



Noyabrın 30-da birinci üçtərəfli görüş başa çatdıqdan sonra Azərbaycanın, Pakistanın və Türkiyənin xarici işlər nazirləri Elmar Məmmədyarov, Havaca Məhəmməd Asif və Mövlud Çavuşoğlu birgə mətbuat konfransı keçiriblər. AZƏRTAC xəbər verir ki, nazirlər üçtərəfli görüşdə müzakirə olunan məsələlər barədə məlumat veriblər.

Elmar Məmmədyarov bildirib ki, Azərbaycan bu görüşün keçirilməsində maraqlı idi. Birinci üçtərəfli görüşdə əsasən ölkələrimiz arasında iqtisadiyyatın inkişafı, xüsusilə ticarət dövriyyəsinin artırılmasına dair məsələlər müzakirə edildi. Nazir bu il Azərbaycanın hər iki ölkə ilə diplomatik münasibətlərinin qurulmasının 25 illiyinin qeyd olunduğunu deyib. O qeyd edib ki, beynəlxalq təşkilatlarda ölkələrimizin mövqeləri üst-üstə düşür. Nazir görüşdə regional münaqişələr, terrorla mübarizə barədə də müzakirələrin aparıldığını diqqətə çatdırıb.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə Azərbaycanın və Türkiyənin yaratdığı nəqliyyat dəhlizindən Pakistanın da yararlanması təklif olundu. “Ölkələrimiz arasında ikitərəfli və ya üçtərəfli hava nəqliyyatının bərpa olunması məsələsini də müzakirə etdik. Enerji sahəsində əməkdaşlığın yüksək səviyyəsindən məmnunuq. Parlamentlərarası münasibətlərimiz də yüksək səviyyədədir, amma bu əlaqələr daha da genişləndirilməlidir. Beləliklə, Azərbaycan tərəfi bu görüşdən məmnundur”, - deyə xarici siyasət idarəsinin rəhbəri vurğulayıb.

Pakistanın xarici işlər naziri Xavaca Məhəmməd Asif deyib ki, xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü çox məhsuldar keçdi, geniş müstəvidə müzakirələr aparıldı. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması ilə bağlı müzakirələri xüsusi qeyd edilməlidir.

Nazir vurğulayıb ki, ticarət dövriyyəsinin üçtərəfli formatda inkişafı daha faydalı nəticələr verə bilər. “Birbaşa hava nəqliyyatının bərpası üçün lazım olan bütün səyləri göstərəcəyik və hesab edirəm ki, buna nail olacağıq. Beynəlxalq məsələlərdə hər üç ölkənin mövqeləri üst-üstə düşür. Parlamentlərarası əlaqələri genişləndirmək barədə razılığa gəldik. Həmçinin qərara aldıq ki, üçtərəfli formatdan daha geniş istifadə edək”, - deyə pakistanlı nazir qeyd edib.

Üçtərəfli görüşün əhəmiyyəti barədə danışan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, əsas məqsəd ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirməyin yolları barədə müzakirələr aparmaq idi. Ticarət dövriyyəsi daha da inkişaf etdirilməlidir. Xüsusilə müdafiə sahəsində əməkdaşlığı gücləndirə bilərik. Biz bu sahədə bir-birimizi dəstəkləyirik.

Nazir görüşdə bu formata hər üç ölkənin parlamentarilərini də cəlb etmək barədə razılıq əldə edildiyini bildirib. “Biz Qarabağ, Kəşmir və Kipr məsələsinin həllində daha çox həmrəy olmalı və bir-birimizə dəstək zamanı heç nədən çəkinməməliyik. Qarabağ və Kəşmir məsələsində qardaş Azərbaycanın və qardaş Pakistanın daim yanındayıq. Biz terrorçuların İslamı əllərində vasitəyə çevirmələrinə imkan verməyəcəyik”, - deyə nazir qeyd edib. Mövlud Çavuşoğlu Azərbaycanın beynəlxalq arenada rolunun getdikcə daha da artdığını, önəmli aktora çevrildiyini vurğulayıb.

## Azərbaycanın və Türkiyənin Hərbi Hava Qüvvələri arasında əməkdaşlığın hazırkı vəziyyəti müzakirə olunub



Noyabrın 30-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Hasan Küçükakyüz ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general H.Küçükakyüzün rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb. Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış “Türk Şəhidliyi” abidəsi önünə əklil qoyub.

Müdafiə Nazirliyində keçirilən görüşdə Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı, eləcə də Hərbi Hava Qüvvələri arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Söhbət zamanı qardaş ölkələrimizin rəhbərləri və xalqlarımız tərəfindən daim dəstəklənən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının genişləndirilməsinin vacibliyi vurğulanıb. Təcrübə mübadiləsi məqsədilə hərbi mütəxəssislərdən ibarət ekspert qruplarının qarşılıqlı səfərlərinin, eləcə də Quru Qoşunlarının, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə təlimlərin sayının artırılması və digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycanın sosial-iqtisadi inkişafının əsas məqsədi vətəndaşın güzəranının yaxşılaşdırılması, onun üçün hər cür yaşam şəraitinin yaradılmasıdır

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*



***- Hadi müəllim, ötən həftə Milli Məclisdə 2018-ci ilin büdcə zərfinə daxil olan məsələlər geniş müzakirə olundu. Gələn ilin dövlət büdcəsi layihəsində sosial məsələlər özünün necə əksini tapır?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən sosial-iqtisadi siyasəti və hərtərəfli islahatlar strategiyası qlobal miqyasdakı siyasi kataklizmlərdən qaynaqlanan ciddi çətinliklərin təsirlərini azaltmaqla yanaşı, ölkənin əsas inkişaf proqramlarının uğurla icrasına təminat verməkdədir. Hazırda ölkənin sosial müdafiə sistemi qarşısında qoyulan başlıca vəzifələr əhatəliliyin maksimum dərəcədə artırılması, səmərəliliyin yüksəldilməsi, ünvanlılığın və şəffaflığın tam təmin olunmasıdır. Bunun nəticəsidir ki, dünyada proqnozlaşdırılması çətin olan maliyyə və iqtisadi proseslərin baş verdiyi hazırkı şəraitdə ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri daha da inkişaf etdirilir.

Qeyd etdiyiniz kimi, respublikamızın ali maliyyə qanunu - büdcə zərfi və onunla bağlı digər sənədlər parlamentin komitə və plenar iclaslarında geniş müzakirə olunub. Debatlarda büdcənin mahiyyətini təmin edən əsas müddəalar daha çox diqqəti cəlb edir. Bunlardan birincisi dövlət büdcəsinin mədaxil hissəsinin əvvəlki ilə nisbətən 20% artması, ikincisi ölkədə möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı geniş miqyaslı iqtisadi və sosial islahatların sənəddə rəqəmlərlə bariz ifadəsi, üçüncüsü və düşünürəm ki ən əsası büdcəmizin sosial yönümlü və investisiya tutumlu olmasıdır. Bütün müzakirələr bir daha onu göstərdi ki, Azərbaycanın sosial-iqtisadi inkişafının baş məqsədi vətəndaşın güzəranının yaxşılaşdırılması, onun üçün hər cür yaşam şəraitinin yaradılmasıdır.

***- "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2018-ci il büdcəsi" haqqında nə deyə bilərsiniz?***

Büdcə zərfində bir sıra əsaslı özəlliklər diqqəti cəlb edir. Belə ki, bu il əvvəlki illərdə bizə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi kimi ünvanlanan sənədlər, indi "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2018-ci il büdcəsi" kimi təqdim olunur. Bu büdcənin mədaxil və məxarici bütövlükdə 3 milyard 578 milyon 760 min manat təşkil edir. Gəlirlərin böyük birqismi təxminən 2 milyard 300 milyon manatı məcburi dövlət sığorta haqqları hesabına formalaşır. Sevindirici hal ondan ibarətdir ki, bu məbləğin 1 milyard 400 milyon manatı büdcədən maliyyələşən təşkilatlar deyil, digər sığorta edənlər tərəfindən ödənilir. Fiziki şəxslərdən yığılan sığorta haqqlarıbu dəfə 60 milyon manata çatdırılıb. Ötən illə müqayisədə ümumi məbləğlərdən tutmuş bütün göstəricilər üzrə büdcədə müsbət tendensiyalar, artımlar özünü göstərir.

İlk dəfədir ki, bu sənəddə dövlət büdcəsindən transfert ifadəsi işlədilmir. Bu fikir sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının imkanlarının balanslaşdırması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait kimi ifadə olunur. Bu hesablanan əmək stajı və sığorta məbləğinin formalaşması, imtiyazlı pensiyaların müəyyənləşməsi və digər bu tipli ödənişlər dövlətin öhdəliyi kimi maliyyələşdiriləcəkdir. Göstərilən vəsaitin məbləği bu il 1milyard 300 milyon təşkil edir. Onu da qeyd edim ki, bu rəqəm əvvəlki büdcələrdə ümumi mədaxilin 42%-ə qədərini təşkil edirdisə, indi bu faiz 36,3%-ə enmişdir. Bu bir daha onu göstərir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yığım faizini hiss olunan qədər artıraraq bu sahədə işlərini xeyli yaxşılaşdırmışdır.

Onu da qeyd edim ki, işəgötürmə sistemində sənədləşdirmə sahəsində boşluqları və digər mövcud ehtiyat mənbələrini dərindən təhlil edərək möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkədə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası komissiyası yaradılmışdır ki, bu da gələcəkdə vətəndaşların sosial sığortaya daha dəqiq cəlb olunmasında mühüm rol oynayacaqdır.

Digər önəmli məsələ bu il "Əmək pensiyaları haqqında" Qanuna etdiyimiz əsaslı dəyişikliklərin maliyyə tutumunun bu büdcədə təzahür olunmasından ibarətdir. İslahatların pozitiv məqamlarından birincisi pensiya haqlarının əvvəlki illərdən fərqli olaraq indeksləşməsi prosesi yalnız pensiyanın baza hissəsinə deyil, bütöv pensiya məbləğinə şamil olunmasıdır ki, bu da ödəmələrin həcminin xeyli artmasına xidmət edəcəkdir.

İkinci maraqlı məqam pensiya yaşı ötmüş çalışan işçilərin bu müddətdə ödədikləri sığorta haqqının da müvafiq zamandan sonra yenidən çözülərək, vətəndaşın pensiyasına əlavə vəsaitinhesablanması məqamıdır ki, bu daməbləğin hiss olunan dərəcədə çoxalmasına xidmət edəcəkdir.

Digər bir məsələ isə artıq gələn ildən əvvəlki illərdə Dövlət Sosial Müdafiə Fondunun büdcəsində nəzərdə tutulmuş işsizliyə görə sığorta haqqı üçün nəzərdə tutulan vəsaitin bu büdcədən çıxarılaraq ayrı bir sistemdə formalaşmasıdır. Bütün bu yeniliklər və islahatlar pensiya ödəmələrinin əsaslı artmasına, gələcəkdə isə bir az da çoxalmasına xidmət edəcəkdir.

***- 2018-ci il üçün "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının məxaric hissəsinin hansı səviyyədə məbləği əhaliyə ödənişlər hesabına olacaq?***

- Gələn il üçün "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının məxaric hissəsinin təxminən 3.5 milyard manatı yəni 98%-ə qədəri bilavasitə əhaliyə ödənişlər hesabına olacaqdır.

Komitə iclasında əlaqədar icra orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə keçirilən müzakirələrdə uğurlar, müsbət tendensiyalarla yanaşı bir sıra digər maraqlı fikirlər də səsləndi. Belə ki, bu sahədə debitor borclarının yığılması ilə bağlı daha ciddi tədbirlərin görülməsinə ehtiyac olduğu xüsusilə vurğulandı. Eyni zamanda Hesablama Palatasının apardığı təhlillər onu göstərir ki, təxminən 2016-cı ildə dövlət sosial sığortasına cəlb edilməyən ümum daxili məhsuldakı rəqəm artıq 1 milyard 100 milyon manatı keçmişdir. Bu da onu göstərir ki, bütün dövlət strukturlarının birgə əməkdaşlığı nəticəsində sığorta fonduna əlavə vəsaitlərin cəlb olunması üçün böyük ehtiyat mənbələri vardır.

Düşündürən məsələlərdən biri də, əlilliyə görə pensiyaya çıxanlar qismən azalsa da, faiz olaraq ümumi pensiyaçıların tərkibində yüksək olaraq qalmaqdadır. Belə ki əlilliyə görə pensiya alanların 385 min nəfər təşkil etməklə ümumi pensiyaçıların təxminən 29,2%-nə qədəri olur. Hesab edirəm ki, bu qrup insanların pensiyaya çıxma şərtlərinin yenidən işlənməsinə ehtiyac vardır.

***- Hadi müəllim, "İşsizlikdən Sığorta Fondunun büdcəsi" haqqında da fikirlərinizi bilmək istərdik. Nəzərə alsaq ki, bu yeni bir məsələdir, fondun əhəmiyyəti nədən ibarətdir?***

- Bu ilin büdcə zərfinin müzakirələrində yeni bir sənəd "İşsizlikdən sığorta fondunun büdcəsi" hamımızın diqqətini cəlb etdi. Möhtərəm Prezidentimiz İlham Əliyevin sosial müdafiə sistemində məşğulluğun önə çəkilməsi prinsipi bir neçə ay bundan öncə Milli Məclisə daxil olmuş "İşsizlikdən sığorta haqqında" Qanunda özünün bariz əksini tapmışdır. Bu qanun qüvvəyə minəndən sonra və ondan xeyli əvvəl yeni iş yerlərinin yaradılması, işsizliyin qarşısının alınması və bütövlükdə ölkə üzrəməşğulluq sisteminin köklü təkmilləşdirilməsi məsələsi gündəmə gəlmişdir. Son iki ildə orta və kiçik sahibkarlığın inkişafı ilə bağlı aparılan davamlı siyasət ölkəmizdə 100 minlərlə yeni iş yerlərinin yaradılmasına xidmət etmiş, kənd təsərrüfatı, emal, turizm və istirahət biznesində sahibkarlıq fəaliyyəti geniş vüsət almışdır. Bu ilin aprel ayında ölkə başçısının sərəncamı ilə ilk dəfə respublikamızda özünüməşğulluq sistemi formalaşmış və bu məqsədə 16 milyon manat vəsait ayrılmışdır.

Özünüməşğulluğun ölkə üzrə hərtərəfli və genişmiqyaslı tətbiqi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin Beynəlxalq Əmək Təşkilatı ilə birgə dünya təcrübəsinin öyrənilməsi məqsədilə sahəsində bir sıra maraqlı layihələr həyata keçirmişdir. Onu da qeyd etməyi vacib sayıram ki, əvvəlki illərdən fərqli olaraq məşğulluq xidmətinin fəaliyyəti köklü dəyişdirilmiş, burada yeni faydalı əsas istiqamətlər müəyyənləşdirilmişdir.

İşsizlikdən Sığorta Fondunun 2018-ci il büdcəsi 89 milyon manatdan bir az çoxdur. Fondun mədaxil hissəsi büdcədən maliyyələşən təşkilatlar hesabına bu məbləğin 17 milyon 726 min manatını təşkil edəcəkdir. Bu vəsait artıq dövlət büdcəsində nəzərdə tutulmuşdur. Digər bir rəqəm başqa sığorta edənlərin hesabına formalaşır ki, bu da təxminən 53 milyon manat təşkil edir. Qəbul etdiyimiz qanuna əsasən bu fonda işəgötürənlər və işçilər hər biri əmək haqqı fondunun 0,5%-i məbləğində ümumilikdə 1% vəsait köçürəcəklər. Fondun baş məqsədi, aktiv məşğulluğun təmin olunmasıdır. Bütövlükdə fondun fəaliyyətinin fəlsəfəsi ondan ibarətdir ki, gələcəkdə yardım sistemindən, ələbaxımlıqdan, şəxsiyyətin deqradasiyasından məşğulluğun bu və ya digər formasına keçməkdir. Belə ki, bu büdcənin xərclərinin 35,8 milyon manatı bilavasitə özünüməşğulluq tədbirlərinin təşkilinə yönələcəkdir. Peşə hazırlığı, peşə yönümünün dəyişməsinə 1,6 milyon, haqqı ödənilən ictimai işlərin təşkilinə isə 1,8 milyon manat vəsait ayrılacaqdır.

Diqqəti cəlb edən bir rəqəmi də nəzərinizə çatdırmaq istəyirəm. İşsizliyə görə sığorta ödəmələri hissəsi 3 dəfə artıb 33,5 milyon manat təşkil etsə də, bu göstərici yenə də özünüməşğulluq tədbirlərinə ayrılan vəsaitdən azdır. Bu bir daha onu göstərir ki, baş məqsəd vətəndaşlarımızın məşğulluğunun təmin olunmasıdır.

## Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Neftçalada vətəndaşları qəbul edib



Noyabrın 30-da Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Neftçalada vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbulda Neftçala, Salyan, Sabirabad, Saatlı, İmişli, Hacıqabul rayon və Şirvan şəhər sakinləri, eləcə də bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Əvvəlcə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər.

Görüşdə əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, magistratura pilləsində təhsil, 2019-cu ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli, tətbiq olunacaq yeniliklər, həmçinin dövlət qulluğuna qəbul üzrə müsabiqənin keçirilməsi və digər məsələlərlə əlaqədar müraciət edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Bir sıra müraciətlər isə araşdırılması və baxılması üçün qeydiyyatı alınıb. Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da Məleykə Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

# “Hərəyə bir ağac əkək” kampaniyası uğurla həyata keçirilir

## Gəncə

Gəncədə şəhər icra hakimiyyətinin, YAP Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar “Hərəyə bir





ağac əkək” kampaniyasına start verilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə layihələndirilən ağacəkmə kampaniyasında YAP Gəncə şəhər təşkilatının idarə heyəti, qadınlar şurası və gənclər birliyinin üzvləri, partiya fəalları, ziyalılar, şəhərin bütün idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri yaxından iştirak ediblər.

Bayram əhvali-ruhiyyəsi ilə başlayan kampaniyanın ilk günündə YAP fəallarının iştirakı ilə Ulu Öndərin adını daşıyan möhtəşəm Heydər Əliyev Park Kompleksinin ərazisində şəhərin landşaftına uyğun 2000-dən çox ağac əkilib.

Havanın soyuq olmasına baxmayaraq, ağacəkmə kampaniyasında Ümummilli Liderin müdrik ideyalarına daim sədaqətli olan partiya fəalları, xüsusilə fərqləniblər. Onlar ağac əkməklə yanaşı, ərazidə təmizlik-abadlıq işləri aparıb, ərazini alaq otlarından, daşlardan təmizləyib, yeni əkilən ağacları suvarıb, əvvəllər basdırılan tinglərə aqrotexniki qaydada qulluq göstəriblər.

Qeyd edək ki, “Hərəyə bir ağac əkək” kampaniyası, mütəmadi olaraq, gələn ilin mart ayına qədər davam edəcək, 40 min ağac və bəzək bitkisi əkiləcək.

Bu möhtəşəm kampaniya Gəncədə yaşıllığın genişləndirilməsinə və ekoloji durumun daha da yaxşılaşdırılmasına böyük töhfə verəcək.

## Qusar

YAP Qusar rayon təşkilatının və rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasi-



bəti ilə “Hərəyə bir ağac əkək” devizi altında növbəti ağacəkmə kampaniyası keçirilib. Qeyd edək ki, Azərbaycanın tarixində və ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan YAP-ın 25 illik yubileyi Qusar rayonunda müxtəlif tədbirlərlə qeyd olunmuşdur.

Yaşıllaşdırılmanın və ağacəkmənin ekoloji tarazlığın pozulduğu müasir dünyamızda həyat üçün aktuallığını və böyük əhəmiyyətini nəzərə alaraq, ağacəkmə mövsümündə 5800 tingin əkilməsi nəzərdə tutulmuşdur. Həmin gün 1500-ə qədər qoz ağacı aqrotexniki qaydalara riayət olunmaqla əkilmişdir.

Ağacəkmə kampaniyası, mütəmadi olaraq, rayon mərkəzində və bütün yaşayış məntəqələrində meyvə və dekorativ ağacların əkilməsi ilə növbəti ilin yaz aylarına qədər davam etdiriləcəkdir.

## Samux

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü ilə əlaqədar partiyanın Samux rayon təşkilatı “Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində ağacəkmə aksiyası keçirib. Aksiyada YAP Samux rayon təşkilatının İdarə heyəti və şurasının, həmçinin Qadınlar Şurasının və Gənclər Birliyinin üzvləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.



Aksiyada Lək-Əlibayramlı magistiral avtomobil yolunun kənarına və sosial-ictimai obyektlərin həyətlərinə 1000 ədəddən artıq həmişəyaşıl və dekorativ ağac, çinar, Eldar şamı, gül kolu əkilib, quruyan ağaclar yeniləri ilə əvəz edilib, onların suvarılması təmin olunub. Ağacların inkişafı üçün gübrələr verilərək yeni su xətti çəkilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov bildirib ki, bu tədbirlər gələn ilin mart ayına kimi davam etdiriləcək. Onun sözlərinə görə, “Hərəyə bir ağac əkək” kampaniyası ölkədə meşəlik zolağının və yaşıllığın daha da genişləndirilməsi, ekoloji durumun daha da yaxşılaşdırılmasına xidmət edir.

## Qazax

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə Qazaxda ağacəkmə aksiyası keçirilib.



“Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində keçirilən ağacəkmə aksiyasında YAP Qazax rayon təşkilatının fəalları, rayon ictimaiyyətinin nümayəndələri, həmçinin gənclər yüksək fəallıq göstəriblər. Aksiya çərçivəsində rayonun Dəmirçilər kəndi ərazisində olan 3 hektar sahəyə 1600 ədəd ərik ağacı əkilib. Əkilən tinglər suvarılıb.

Qeyd edilməlidir ki, ənənə halını almış ağacəkmə kampaniyasında məqsəd rayon ərazisində yaşıllıq zolağını genişləndirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etməkdən ibarətdir. Eyni zamanda, YAP üzvlərinin fəal təşkilatçılığı ilə aparılan bu kampaniya rayonda ekoloji tarazlığın qorunması istiqamətində atılan addımlara mühüm dəstək sayıla bilər. Tədbirdə bu aksiyanın davam etdiriləcəyi də vurğulanıb.

## Ağsu

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar Ağsu rayonunda “Hərəyə bir ağac əkək”



kampaniyasına start verilib.

YAP Ağsu rayon təşkilatının fəallarının yaxından iştirak etdiyi bu kampaniyada xeyli sayda həmişəyaşıl agac, meyvə ağacı və bəzək bitkiləri əkilmişdir.

## YAP Qobustan rayon təşkilatının növbəti şura iclası keçirilib

YAP Qobustan rayon təşkilatının növbəti şura iclası keçirilib. Şura iclasında şura üzvləri, idarə heyətinin üzvləri, rayon təşkilatının gənclər birliyinin üzvləri və ərazi ilk partiya təşkilatının sədrləri iştirak edib. İclasda çıxış edən YAP Qobustan rayon təşkilatının





sədri Füzuli Gülaliyev Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinin yüksək səviyyədə qeyd olunduğunu deyib. Bildirib ki, YAP möhtəşəm tarix yol keçdiyi 25 il ərzində Azərbaycanda yüksək inkişaf əldə olunub: “İnkişafı özündə əks etdirən bütün faktlar Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə əlaqədardır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Onun titanik fəaliyyətilə, 2003-cü ildən sonar isə Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində bu irəliləyişlər əldə olunubdur”.

YAP Qobustan rayon təşkilatının sədri Yeni Azərbaycan Partiyasının rayon təşkilatı sədrlərinin ümumrespublika müşavirəsində səslənən fikirlərə münasibətini də bildirərək, geniş fikir mübadiləsi aparıldığını qeyd edib. 2018-ci ildə keçiriləcək prezident seçkilərinə artıq start verilib: “Prezident seçkilərilə əlaqədar bu gündən YAP Qobustan rayon təşkilatı öz işini günün tələbləri səviyyəsində qurmalıdır. Gələn ilin yanvar ayından etibarən, partiyanın bütün üzvləri seçkiyə hazırlıqla bağlı səfərbər olunacaq. Bütün bunların əsasında rayon miqyasında ilk partiya təşkilatları tərəfindən görüləcək işlərlə bağlı tədbirlər planı hazırlanacaq”.

Tədbirdə şura üzvlərindən Məharət Əkbərov, Aynur İsmayılova, Elman Mikayılov və digərləri çıxış edərək, Yeni Azərbaycan Partiyasının 25 ildə uğurları və dünya siyasətində rolu haqqında geniş və ətraflı məlumat veriblər.

***Rəfiqə HÜSEYNOVA***

# Cocuq Mərcanlıda əhalinin səmərəli məşğulluğunun artırılması üçün məqsədyönlü işlər görüləcək



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yerli əhalinin səmərəli məşğulluğuna əlavə dəstək verilməsi, xüsusən kənddə özünüməşğulluq proqramı çərçivəsində müxtəlif iqtisadi fəaliyyət növləri üzrə fərdi təsərrüfatların qurulması üçün aktiv məşğulluq tədbirlərinə hazırlıq işləri aparır. AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Cocuq Mərcanlı kəndində bu kəndin və ətraf ərazilərin yerli əmək resurslarının məşğulluğunun təminatı ilə əlaqədar görüləcək işlərin müzakirəsinə həsr olunan müşavirə keçirilib.***

Müşavirədə Dövlət Məşğulluq Xidmətinin rəisi Anar Bədəlbəyli aktiv məşğulluq tədbirlərinin təşkili zamanı işğal altında olan rayonlar üzrə işsiz və işaxtaran vətəndaşların məşğulluğunun təminatının daim diqqətdə saxlanıldığını, bu sahədə məqsədyönlü işlərin aparıldığını bildirib. O diqqətə çatdırıb ki, Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri nəticəsində bu ilin yanvar-oktyabr aylarında 43 min 746 nəfər işsiz və işaxtaran şəxs münasib iş yerləri, 919 nəfər haqqıödənilən ictimai işlərlə təmin olunub. Xidmətin xətti ilə 2920 nəfər üçün əmək bazarında rəqabətədavamlı peşələr üzrə peşə hazırlığı və əlavə təhsil kursları təşkil edilib.

Bildirilib ki, Prezidenti İlham Əliyevin 2016-cı il 7 aprel tarixli Sərəncamına əsasən, icra olunan özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluq, eləcə də gələcəkdə kiçik ailə biznesinə çıxış imkanlarına malik olmalarında mühüm rol oynayır. Proqram çərçivəsində cari ildə 1153 nəfərin ailə əməyinə əsaslanan fərdi təsərrüfatlarını qurmaları üçün aktivlərlə (mal və materiallarla) təminatı həyata keçirilib. Onlar verilmiş aktivlərdən səmərəli şəkildə istifadə edərək biznes-planlarına uyğun və ailə əməyinə əsaslanan təsərrüfatlarını qura biliblər.

Qeyd olunub ki, 2018-ci ilin əvvəlindən ölkəmizdə "İşsizlikdən sığorta haqqında" Qanunun tətbiqinə başlanacaq. İşsizlikdən sığorta sisteminin formalaşması işsizlikdən sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiyasına, onların sosial-iqtisadi mənafelərinin dolğun təminatına imkan verməklə, aktiv məşğulluq tədbirlərinin, xüsusən özünüməşğulluq proqramının xeyli genişlənməsinə səbəb olacaq. İşsizlikdən sığorta fondunun xərclərinin 35,8 milyon manatının və ya 40 faizinin məhz özünüməşğulluq tədbirlərinin təşkilinə yönəldilməsi proqnozlaşdırılır. Bu da özünüməşğulluq proqramına cəlb olunanların sayının dəfələrlə artırılmasına səbəb olacaq. Eyni zamanda, proqramın Cocuq Mərcanlı kəndini də əhatə etməsi, bu kəndin əhalisinin həmin proqramdan faydalanmalarına, bununla öz ailə gəlirlərini artırmalarına, sahibkarlığa çıxış imkanları əldə etmələrinə əlverişli şərait yaradılması diqqətdə saxlanılır.

Müşavirədə Cocuq Mərcanlı kəndində və ətraf ərazilərdə yerli əmək bazarının vəziyyəti, mövcud məşğulluq sahələri, əmək resursları, aktiv əmək bazarı proqramlarının, o cümlədən özünüməşğulluq proqramının icrası üçün yerli potensial və sair ilə bağlı geniş müzakirələr aparılıb, aidiyyəti üzrə təkliflər verilib. Bildirilib ki, hazırda bu kənddə yerli iqtisadiyyat əsasən əkinçilik və heyvandarlıq üzərində qurulub. Kənd sakinlərinin bu ənənəvi fəaliyyət sahələri üzrə ailə əməyinə əsaslanan fərdi təsərrüfatlarını qurmaları, eləcə də mövcud təsərrüfatlarını genişləndirmələri özünüməşğulluq proqramı vasitəsilə dəstəklənəcək. Eyni zamanda, Cocuq Mərcanlı kəndində yerli sakinlərdən öz doğma kəndlərində müxtəlif ictimai-iaşə xidmətlərinin göstərilməsi üçün fərdi təsərrüfatlar, istehsal və ya emalyönümlü müəssisələr qurmaq istəyənlərin özünüməşğulluq proqramına cəlb edilməsi təmin olunacaq. Müvafiq hallarda seçdikləri fəaliyyət növlərində zəruri peşə bacarıqlarına yiyələnmələri üçün onların peşə hazırlığına cəlb olunmalarına da imkan yaradılacaq. Ümumilikdə, Cocuq Mərcanlıda əhalinin səmərəli məşğulluğunun artırılması üçün məqsədyönlü işlər aparılacaq. Bu tədbirlər həm yerli sakinlərin məşğulluğunun artırılmasına, həm də ərazidə iqtisadi həyatın daha da canlanmasına, kiçik sahibkarlığın genişlənməsinə əlavə dəstək olacaq.

# Şabranda İslam həmrəyliyinə dair tədbir keçirilib



***Şabran şəhər Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəbdə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi və Şabran rayon Gənclər və İdman İdarəsinin təşkilati dəstəyi ilə "Sülh və inkişaf naminə həmrəy olaq!" adlı layihənin icrasına başlanılıb.***

Tədbiri giriş sözü ilə açan layihə rəhbəri Elvin Vəliyev Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu haqqında ətraflı məlumat verib. O bildirib ki, layihənin əsas məqsədi cənab Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "İslam Həmrəyliyi ili"nin Şabran rayonunda yaşayan gənclər arasında təbliğ edilməsi, onların müvafiq olaraq maarifləndirilməsi, islam həmrəyliyinin ölkəmizə, eləcə də bütün islam aləminə verəcəyi müsbət nəticələrin gənclərə aşılanmasıdır. O, qeyd etmişdir ki, sağlam düşüncəli, təhsilə və islami dəyərlərə önəm verən, ölkəmizin inkişafında öz payının olmasına səy göstərən gənclərin yetişdirilməsi müstəqilliyimizin və uğurlu gələcəyimizin təminatıdır.

Daha sonra Şabran rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Musa Hüseynov, təlimçi Ramiz Əliyev çıxış edərək diqqətə çatdırıblar ki, 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunması Azərbaycanda islami dəyərlərə verilən qiymətin dünya səviyyəsində bir daha qeyd olunmasının göstəricisidir. Çünki bu dəyərlər Azərbaycan üçün son dərəcədə vacib mənəvi dəyərlərdir və Azərbaycanı islam dünyasının incisi olmağa layiq bir ölkə kimi qiymətləndirmək olar. İslam aləmi ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm bir hissəsi kimi daim inkişaf etməkdədir. Bu gün Azərbaycan öz sosial-iqtisadi, siyasi-ictimai və mədəni inkişafında böyük nailiyyətlərə çataraq bir çox müsəlman ölkələrinə nümunə olmuşdur.Yanvar ayına qədər davam edəcək layihə çərçivəsində Şabran rayon ümumtəhsil məktəblərində müvafiq maarifləndirici görüşlər keçiriləcəkdir.



## Qaranlıq siyasi dairələrin idarə olunan reneqatı

**RƏFİQƏ**

***Dağıdıcı müxalifət aşırı həyasızlığını görəndə susa bilmirsən. Çünki dağıdıcı müxalifətin həyasızlığı, necə deyərlər, "astarı üzündən qalın" olduğu üçün yarındığı gündən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Bəlli olan reallıq isə budur ki, iqtidara rəqib və alternativ ola bilməyib - yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Nə bu gün, nə sabah bu durum dəyişməyəcək. Ölkəmizdə keçirilən və demokratik prinsiplərə söykənən bütün seçkilərdə olduğu kimi, 2018-ci ildə keçiriləcək prezident seçkiləri ərəfəsi də müxaliətin qürub etməsi həyasızlığın son həddidir.***

Sirr deyil ki, bu gün ölkəmizdə siyasi mövqe və əqidələrini dəyişib ucuz dividendləri xatrinə şəxsi mənfəətlərini güdən spekulyant fərdlər, daha çox reneqat adlandırılan bu fərdlərin son anda nə edəcəkləri də bəllidir. Onlar qarşılaşdıqları uğursuzluqlardan dolayı çətin vəziyyətdə kənara çəkilib, heç nə olmamış kimi, susmağa üstünlük verirlər. Belə reneqatlardan biri olan "El" hərəkatının sədri Eldar Namazov hələ ötən prezident seçkilərindən öncə "fəallıq" göstərərək, R.İbrahimbəyovun egidası altında az qala özünü "bir nömrəli siyasətçi" hesab edirdi. Ancaq nəticə göstərdi ki, bu adam, ümumiyyətlə, yararsızın biridir. Ümumiyyətlə, E.Namazov seçkilərdən-seçkilərə üzə çıxan, sonra isə qürub edən fərd kimi yadda qalıb.

Ölkəmizin siyasi arenasında müxtəlif əndrəbadi üsullarla özünü göstərmək istəyən Namazov bu gün də dağıdıcı qüvvə olaraq öz hədəflərinə nail ola bilmir. Ona görə ki, rəhbərlik etdiyi qurumunda təmsil olunan 5-3 nəfər anlayırlar ki, onlar Namazovla heç bir uğura imza ata bilməyəcəklər. Lakin buna baxmayaraq, onun son hərəkətləri də bəzi qaranlıq məqamlardan xəbər verir. Məsələn, xatırlayırsınızsa, hələ prezident seçkilərindən öncə qurumu tərk edən və bu hərəkatının keçmiş ali məclis sədrinin sabiq müavini Əflan İbrahimov bildirirdi ki, hərəkat rəhbəri E.Namazov AXCP sədri Ə.Kərimli ilə danışıb və qərara alınıb ki, ölkədə xaos və anarxiya yaradılsın. Məhz bu açıqlamalardan sonra Ə.İbrahimov "Milli Şura"nın qapalı keçirilən iclaslarında şuranın bəzi üzvləri tərəfindən Bakı şəhərində iğtişaşların törədilməsi məqsədilə müzakirələrin aparılması barədə kütləvi informasiya vasitələrinə verdiyi açıqlamalarla əlaqədar hüquq-mühafizə orqanlarına çağırıldı. Faktla bağlı, hətta müvafiq araşdırmalara da başlanıldı. "El" hərəkatının rəhbəri son məqamda başa düşdü ki, siyasətdə radikal addımlar atmaq, avantüraya yol verməklə uğursuzluğa aparan ən səhv vasitədir. Vətəndaşların dağıdıcı müxalifəti dəstəkləmədiyi təqdirdə, istənilən addım əks-effektin ortaya çıxmasına səbəb olur. Eyni zamanda, ötən ilin seçkilərindən əvvəl, hər gün çıxışları ilə mətbuatda görünən E.Namazov artıq neçə aydır ki, yoxa çıxıb. Hər kəsin də müşahidə etdiyi kimi, indi "EL" hərəkatından da, onun "əzəmətli" siyasi rəhbəri E.Namazovdan da xəbər-ətər yoxdur. Görünür, növbəti seçki marafonunda da məqsədlərinə nail ola bilməyən Eldar Namazov kölgəyə çəkilərək, 2018-ci ilin prezident seçkilərini gözləyir və elə düşünür ki, yenə də onun kimilər meydana çıxaraq, "demokratiya uğrunda mübarizə apardıqlarını" bəyan edəcəklər. Bir də "EL" sədrinin növbəti seçkilərdə də "zühur" edəcəyi və sonradan yenidən qürubu heç də təəccüblü görünmür. Hətta bu amil E.Namazovun köhnə şakəridir desək, yenə də yanılmarıq...Bəli, bu, reallıqdır.

# Ətraf mühitin mühafizəsi milli inkişaf strategiyasının prioritet istiqamətlərindəndir

***Ətraf mühitin mühafizəsi məsələsi, bütün dünyada olduğu kimi, Azərbaycanda da diqqətdə dayanan əsas məsələlərdəndir. Bütün sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli məqsədi ilə Azərbaycanda ardıcıl ekoloji siyasət yürüdülür. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli, məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi, ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi istiqamətində də əsaslı dönüş yaranıb. İqtisadi inkişafla bərabər ətraf mühitin sağlamlaşdırılması, təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi dövlət başçısının daim diqqət mərkəzindədir.***

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması ən yüksək səviyyədə təmin edilməkdədir. Azərbaycan Respublikasının Prezidentinin imzaladığı fərmanlarda, təsdiq etdiyi Milli və Dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədi ilə tədbirlər həyata keçirilir. Zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan Azərbaycanda ekoloji problemlərin həllini tapması üçün qəbul olunan sənədlər ekoloji tarazlığın və ətraf mühitin mühafizəsi sahəsində müstəsna rol oynayır.

## EKOLOJİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNİN TƏZAHÜRÜ KİMİ ÖLKƏMİZDƏ AVROPA STANDARTLARINA UYĞUN QANUNVERİCİLİK BAZASI YARADILIB

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindəndir. Belə ki, ətraf mühitin yaxşılaşdırılması istiqamətində "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı", "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və digər proqramlarda nəzərdə tutulmuş ekoloji tədbirlər həyata keçirilib. Ekoloji siyasətin həyata keçirilməsinin təzahürü kimi respublikamızda Avropa standartlarına uyğun müvafiq qanunvericilik bazası yaradılıb, ətraf mühit üzrə Dövlət İdarətmə Sistemin təkmilləşdirilib.



Ətraf mühitin sağlamlaşdırılması məsələlərinə göstərilən gündəlik qayğının, həyata keçirilən ardıcıl tədbirlərin nəticəsində, ölkəmizdə ekoloji durum əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ekoloji problemlərin aradan qaldırılması və səmərəli idarəetmə sisteminin yaradılması istiqamətində nailiyyətlər əldə olunub. Atmosfer havasının çirklənməsi ilə bağlı aparılan monitorinqlərin də nəticəsi bu reallığı əks etdirir. Belə ki, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naxçıvan, Lənkəran və başqa məkanlarda yerləşən müşahidə məntəqəsində həyata keçirilən monitorinqlər zamanı bu və ya digər şəhərlərdə yüksək çirklənmə halları qeydə alınmayıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində ekoloji tədbirlərin davam etdirilməsinin vacibliyini diqqətə çəkərək, son illər ərzində həm Bakı şəhərində, həm də bölgələrdə bu istiqamətdə çox böyük işlər görüldüyünü bildirib. Bu baxımdan, ölkəmizdə, xüsusilə də, paytaxtda havanın meyarları yüksək səviyyədədir.

## "İNDİ ƏHALİMİZİN BÖYÜK HİSSƏSİ DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ NORMALARINA UYĞUN SU İLƏ TƏMİN OLUNUR"

Ölkəmizin iqtisadi gücü artdıqca ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində də əsaslı dönüş yaranır, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Əhalinin ekoloji cəhətdən təmiz içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə də böyük işlər görülüb. 2007-2017-ci illərdə ölkəmizin 24 rayonunun 384 yaşayış məntəqəsi keyfiyyətli içməli su ilə təmin edilib və əhalinin sayı 625 mini keçib.

Bu gün dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, indi əhalimizin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur: "Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir. Bakıda yerləşən yod zavodunun bütün qalıqları çıxarılıb. O da, bir tərəfdən ekologiyanı zəhərləyirdi. Baxın, bunlar insanların sağlamlığına nə qədər ziyan vurürdu. İndi bunların heç biri yoxdur".

## ƏTRAF MUHITIN ÇİRKLƏNMƏSİ MİNİMUMA ENDİRİLİB

Son illərdə intensiv şəkildə meşəsalma və meşəbərpa tədbirlərinin aparılması, regionların qazlaşdırılması, meşələrin mühafizəsi tədbirlərinin gücləndirilməsi, o cümlədən, qanunsuz ağac kəsmə hallarının ilbəil azalması hesabına meşə ilə örtülü ərazilərin sahəsinin artmasına nail olunub. Meşə ilə örtülü ərazilərin sahəsi 1 milyon hektarı keçib və ölkə ərazisinin 11,4 faizindən 11,8 faizinədək artıb. Belə ki, 144,5 min hektar sahədə 101,5 milyon ağac əkilib, 88,6 min hektar ərazidə meşə əkinləri meşə ilə örtülü ərazilərə keçirilib. Statistik göstəricilərə əsasən, təkcə 2016-cı ildə 10151 hektar sahədə meşəbərpa tədbirləri aparılıb, o cümlədən, 2645 hektar yeni meşələr salınıb, 3 milyondan artıq ağac əkilib. Bioloji müxtəlifliyin mühafizəsi sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində, xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 2003-cü ildən etibarən təxminən 2 dəfə artırılaraq, ölkə ərazisinin 10,3 faizinə çatdırılmışdır. Hazırda ölkədə ümumi sahəsi 893 min hektar olan xüsusi mühafizə olunan təbiət ərazisi, o cümlədən, 9 milli park, 11 dövlət-təbiət qoruğu və 24 dövlət-təbiət yasaqlığı fəaliyyət göstərir. Milli parklarda müasir xidmət infrastrukturunun yaradılması sayəsində ekoturistlərin sayı kəskin artıb. Göygöl Milli Parkında əhalinin müxtəlif təbəqələri üçün müasir tələblərə cavab verən ekoturizm infrastrukturu istifadəyə verilib və təkcə 2015-2016-cı illər ərzində buraya 265 min turist səyahət edib. "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilib.

Son illər respublikada mərkəzləşmiş kanalizasiya sistemlərinin yenidən qurulması, mövcud çirkab sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə irimiqyaslı layihələr həyata keçirilir. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, beynəlxalq aləmdə Azərbaycan 180 ölkə arasında 31-ci sırada qərarlaşıb. Yaponiya, Belçika, Hollandiya və İsrail kimi dünyanın bir sıra qabaqcıl ölkələrindən daha yüksək mövqe tutub. Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə 2-ci, MDB ölkələri arasında isə birincidir.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi indiki və gələcək nəsillərin sağlam mühitdə yaşamasına hesablanılıb və bütün görülən işlər Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

*Nəzakət ƏLƏDDİNQIZI*



## Bakıda "İslam həmrəyliyinin güclənməsində medianın rolu" mövzusunda konfrans keçirilib

Noyabrın 30-da Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin güclənməsində medianın rolu" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Güney 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin əhəmiyyəti barədə danışıb. O bildirib ki, bu hadisə İslam ümməti üçün tarixi önəm daşıyır. Çünki İslam ölkələri siyasi istiqamətlərinə, məzhəb və təriqət ayrılıqlarına görə tarixən bir-biri ilə mübarizə aparıblar. Bir çox hallarda bu mübarizələr qanlı toqquşmalarla nəticələnib. Bundan istifadə edən bəzi dairələr bundan öz məqsədləri üçün məharətlə istifadə edirlər. Ona görə də İslam ölkələri arasında həmrəylin güclü olması hazırkı vəziyyətdə olduqca vacibdir. Bu istiqamətdə medianın da üzərinə mühüm vəzifələrin düşdüyünü deyən Fazil Güney bu məsələdə İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının İslam ölkələrinin KİV-ləri ilə əməkdaşlığa hazır olduğunu vurğulayıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev bildirib ki, İslam həmrəyliyinin güclənməsində medianın xüsusi rolu var. Bu cür konfranslar əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm önəm kəsb edir.

Azərbaycanda mövcud olan tolerantlıq ənənələrindən danışan Umud Mirzəyev qeyd edib ki, xalqımız başqa dinlərə, dillərə, mədəniyyətlərə həmişə xüsusi hörmətlə yanaşır. Bu gün Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov tədbirdə iştirak etmək üçün Misirdən gələn jurnalistlərdən ibarət nümayəndə heyətini salamlayaraq bildirib ki, bu gün Azərbaycan ilə Misir arasında ikitərəfli əlaqələr inkişaf etməkdədir. Media sahəsində də iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün bu cür səfərlərin təşkili və intensivləşdirilməsi olduqca vacibdir.

Bəhruz Həsənov qeyd edib ki, zəngin tarixi irsə malik Azərbaycan İslam sivilizasiyasının formalaşmasında yaxından iştirak edən ölkədir. Azərbaycanda ilkin islami abidələr kimi inşa olunan məscidlərin və ziyarətgahların olduğunu deyən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı bildirib ki, xalqımız və dövlətimiz tərəfindən bütün tarixi və dini abidələr qorunub saxlanılır.

"Tarix boyu Azərbaycanda dinlərarası və məzhəblərarası həmrəylik mövcud olub. Deyə bilərik ki, Azərbaycan İslam həmrəyliyinin nümunəvi modelini yarada bilib. Azərbaycanın bu təcrübəsi İslam aləmində diqqətlə öyrənilməli və tətbiq edilməlidir. Azərbaycanda fərqli məzhəblərə mənsub olan insanların eyni məsciddə birgə ibadət etmələri dünyadakı islamofob dairələrə verilmiş ən gözəl cavabdır", - deyə o qeyd edib.

Bəhruz Həsənov bildirib ki, Azərbaycan İslam dünyasında böyük nüfuza malikdir. Azərbaycan İslam dəyərlərinə ən yüksək səviyyədə önəm verən ölkələrdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi təkcə ölkəmizdəki məzhəblər arasında olan dialoqun gücləndirilməsi deyil, eyni zamanda, dünyada İslam ölkələri arasındakı həmrəyliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. O vurğulayıb ki, Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları da İslam ölkələri arasında dialoqun gücləndirilməsinə öz töhfəsini verib.

Azərbaycanın terrorun bütün təzahürlərini qətiyyətlə pislədiyini bildirən Prezident Administrasiyasının əməkdaşı qeyd edib ki, İslam dini sülh, mərhəmət dinidir. Bu din terrorla eyniləşdirilməməlidir. Terrordan əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi, dini və mədəniyyət abidələri, eləcə də İslam sivilizasiyasının ilk nümunələrindən olan məscidlər ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb. Bu, ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən də təsdiq olunub.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə ikitərəfli formatda qarşılıqlı faydalı əlaqələrinin olduğunu bildirən Bəhruz Həsənov ölkəmiz haqqında həqiqətlərin, xüsusilə Ermənistanın işğalçılıq siyasəti ilə bağlı informasiyaların İslam ölkələrinin kütləvi informasiya vasitələrində mütəmadi işıqlandırılmasının vacibliyini diqqətə çatdıraraq deyib: "Bu işdə Azərbaycan mediası İslam ölkələrinin KİV-ləri ilə birgə əməkdaşlığı daha da gücləndirməlidir. İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının yaradılması da bu məqsədə xidmət edir". Tədbir müzakirələrlə davam etdirilib.

# Türkiyə-Rusiya əlaqələrinin inkişafı Qarabağ probleminin həllinə öz töhfəsini verəcək



***Son 100 ilə nəzər saldıqda, bəlli olur ki, Türkiyə Rusiya ilə qarşıdurmadan uzaq durmağa çalışır. Türkiyə qlobal layihələrə cəlb olunub və bu layihələrin gerçəkləşməsi Ankaranın maraqlarına cavab verir. Rusiya-Türkiyə münasibətlərinə təsir edən daimi və keçici faktorlar mövcuddur. Ankara və Moskva müxtəlif sahələrdə bir-biriləri ilə həm əməkdaşlıq edir, həm də rəqabət aparır. Türkiyə Rusiya üçün, ilk növbədə, enerji daşıyıcılarının istehlakçısıdır. Digər tərəfdən, enerji daşıyıcılarının Avropa bazarlarına çıxarılması üçün tranzit ölkədir. Rusiya isə Türkiyə üçün istehlak mallarının geniş bazarıdır. Hər iki tərəf uzunmüddətli perspektivdə bir-biriləri ilə əməkdaşlığa məhkumdur.***

Sözsüz ki, Rusiya Cənubi Qafqazı özünün maraq dairəsinə daxil olan region hesab edir və bundan imtina etmək niyyətində də deyil. Türkiyə isə SSRİ dağıldıqdan sonra bu regionda öz maraqlarını gerçəkləşdirmək istəyir və Osmanlı coğrafiyasında Türkiyənin nüfuzunun bərpası məsələsi prioritet hesab olunur.

Hazırda Qərb Rusiyaya qarşı kəskin mövqe tutur, siyasi-iqtisadi və hərbi təzyiqlər davam edir. Türkiyənin də Qərblə münasibətləri əvvəlki kimi deyil. Ona görə də, yaranmış vəziyyətin fonunda Rusiya ilə Türkiyə arasında müşahidə edilən yaxınlaşma başadüşüləndir və bunun həm siyasi, həm iqtisadi və həm də hərbi tərəfləri var.

Hadisələrin bu cür gedişatı və Rusya ilə Türkiyənin yaxınlaşması Azərbaycanın lehinədir. Təbii ki, Türkiyə Qafqazda Rusiya ilə əməkdaşlıq etmək istəyir və buna görə də, Dağlıq Qarabağ münaqişəsinin hansısa şəkildə həll olunmasında maraqlıdır. Türkiyənin marağı odur ki, Qafqazda sülh və əmin-amanlıq olsun, iqtisadi baxımdan sərbəst şəkildə əməkdaşlıq təmin olunsun. Lakin Türkiyə ilə Ermənistan arasında sərhədin bağlı qalması buna əngəl olur. Əsas səbəb də, təbii ki, Dağlıq Qarabağ münaqişəsidir və nə qədər ki, bu münaqişə öz həllini tapmayıb, Türkiyənin əməkdaşlıq planları istək olaraq qalır. Ona görə rəsmi Ankara bu konfliktin tezliklə həllində maraqlıdır. Rusiyanın isə yeni xarici siyasət konsepsiyasında Dağlıq Qarabağ münaqişəsinin həlli bir prioritet kimi göstərilib. Cənub sərhədlərində belə bir hərbi münaqişənin olması və yenidən qızışması Rusiyanın xeyirinə deyil. Çünki uzun müddətdir davam edən Dağlıq Qarabağ konflikti, artıq bəlli olur ki, Rusiyanın maraqlarını təmin etmir. İşğalçılıq siyasəti Ermənistanı dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiyaya da əl açmağa vadar edir və separatçı Sarkisyan rejiminin fəaliyyəti Rusiyaya heç nə vəd etmir. Əksinə, Rusiya işğalçıların hər bir sahədə onların resurslarından istifadə etmək niyyətində olduğunun, yekunda heç bir nəticə əldə edə bilməyəcəyinin fərqindədir. Çünki Ermənistanın hazırkı durumu, bütün sahələrdə geriləməsi, bütün layihələrdən kənarda qalması və regionda marginallaşması regimin iflasa uğrayacağından başqa heç nə vəd edə bilməz. Reallaşdırılan bütün layihələrdən kənarda qalan Ermənistan küncə qısılmış vəziyyətdədir və heç bir iqtisadi irəliləyişə ümid bəsləmir. Əksinə, Ermənistan əhalisinin yoxsulluğu, dövlətin acınacaqlı dərəcədə iqtisadi zəifliyi böhrandan xəbər verir və yalnız işğaıçılıq siyasəti ilə bu durumdan xilas olmağın mümkünsüzlüyü göz qabağındadır. Nəinki Dağlıq Qarabağdan, hətta Ermənistanın özündən belə yaxın gələcəkdə ermənilər köçmək məcburiyyəti ilə üz-üzədir və Azərbaycan torpaqlarını işğalla mənimsəmək istəyənlər heç öz torpaqlarında belə yaşamaq iqtidarında deyillər. Dağlıq Qarabağda müstəqil dövlət yaratmaq iddiasına düşən işğalçı Sarkisyan rejimi tezliklə, hətta Ermənistan dövlətini belə itirmək təhlükəsi qarşısındadır. Belə bir çətin və çarəsiz durumda olan bir dövlət kimi, dünya xəritəsindən silinmək təhlükəsi ilə üzbəüz qalan dövlətin mənafelərini qorumaq, artıq Rusiyanın maraqlarına xidmət edə bilməz. Daha doğrusu, aciz durumda olan və mövcudluğu sual altında olan bir dövlət Rusiyanı maraqlandırmır. Ermənistan Rusiyanın hərbi müttəfiqi olsa belə, Moskva istəyir ki, bu məsələ həllini tapsın və bu istiqamətdə müəyyən addımlar atır.

Münaqişənin həllində vasitəçilik edən ABŞ və Fransadan fərqli olaraq, Rusiya üstün imkanlara malikdir. Bu baxımdan, Moskva münaqişənin aradan qaldırılmasına beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində maraqlı olsa, bütün vasitələrdən istifadə edə, məsələnin həlli istiqamətində ən qısa zamanda uğurlu nəticələr qazana bilər. Çünki Rusiyanın Ermənistana təsir göstərmək üçün kifayət qədər çeşidli imkanları var və ümumiyyətlə, Ermənistan Rusiyadan tam mənada asılı bir dövlətdir.

Nəzərə alsaq ki, bir müddət öncə, Ermənistanın NATO -nun təlimlərində iştirak etməsi və Qərbə inteqrasiya istiqamətində atdığı addımlar Rusiyanı yetərincə qıcıqlandırıb. Deməli, işğalçı dövlətin Rusiyanın təsir dairəsindən çıxmağa meyili rəsmi Moskvanı qane etmir. Qərbin maliyyə dəstəyinə şirniklənmiş Ermənistan bu dəstəyi qazanmaq üçün Rusiya ilə münasibətlərə fərqli baxış nümayiş etdirmək məcburiyyətindədir. Amma Qərbin belə bir seçimi qarşısında olan rəsmi Yerevan buna qadir deyil və Sarkisyan iqtidarının belə imkanları yoxdur. Çünki, Rusiyanın təsir dairəsindən çıxmaqla, Ermənistan məhvə məhkumdur. Amma Rusiya, artıq NATO-nun təlimlərində iştirak edən işğalçı rejimin simasına bələd olduğundan, onun istənilən anda Moskvadan üz döndərəcəyini yaxşı başa düşdüyü üçün tezliklə Yerevanla münasibətlərə yenidən baxacağı inkar edilə bilməz.

Rəsmi Moskva onu da yaxşı başa düşür ki, Türkiyə-Rusiya münasibətlərinin möhkəmləndirilməsi bölgədə təhlükəsizlik problemlərinin həlli baxımından mühüm əhəmiyyət kəsb edir. İşğalçı Ermənistan kimi simasız, etibarsız, xəyanətkar və ikiüzlü bir separatçı rejimlə əlaqələrdənsə, Türkiyə kimi nüfuzlu bir dövlətlə münasibətlərin möhkəmləndirilməsi, təbii ki, Rusiya üçün daha maraqlıdır. Rusiya, həm də onun da fərqindədir ki, Türkiyə bu vaxta qədər olduğu kimi, bundan sonra bütün münasibətlərdə Azərbaycanın maraqlarını öz maraqları kimi qoruyacaq. Bu baxımdan, Rusiya Türkiyə ilə daha səmimi və möhkəm münasibətlər qurmaq üçün Azərbaycanın maraqlarını da nəzərə almalı olacağını, Dağlıq Qarabağ münaqişəsinin həllinin də vacibliyini daha dərindən dərk edir. Ermənistanın böhran vəziyyətində olan acınacaqlı halını və bir-birinin ardınca geniş miqyasda qlobal layihələrə imza atan, uğurlu inkişaf tendensiyası ilə dinamik artım nümayiş etdirən Azərbaycanın və Türkiyə kimi nüfuzlu bir dövlətin potensialını müqayisə etmək iqtidarında olan Rusiyanın bundan sonra işğalçı Sarkisyan rejimini dəstəkləyəcəyinə heç bir ümid qalmır. Bu isə, o deməkdir ki, Rusiyanın dəstəyini arxasında hiss etməyən Ermənistanın, nəinki iddiaları, heç Dağlıq Qarabağa olan ümidləri də qalmayacaq.

**İnam HACIYEV**

# Rusiya Ermənistanı cəzalandıracaq

## *Tahir Mirkişili: "Rusiyada ictimai fikir Ermənistanı müstəqil dövlət kimi qəbul etmir"*



Müsahibimiz millət vəkili Tahir Mirkişilidir

***- Tahir müəllim, son vaxtlar Rusiyanın müxtəlif televiziyalarında, eləcə də, mətbu orqanlarında Ermənistanı ittiham və təhqir edən verilişlər yayımlanır və məqalələr dərc olunur. Bu, birbaşa Kreml tərəfindən Ermənistana qarşı yönəldilən bir siyasət olduğunu demək olarmı?***

- Əslində, Rusiyada ictimai fikir Ermənistanı müstəqil dövlət kimi qəbul etmir. Çünki Ermənistan Rusiya qarşısında müstəqil dövlətin, demək olar ki, bütün atributlarını itiribdir. Belə fikirlər zaman - zaman Rusiya mətbuatında da səslənir. Daha əvvəllər gizlədilirdisə, ancaq artıq Azərbaycan təbliğar vasitələri ilə bu məlumatlar Rusiya ictimaiyyətinə də çatdırılır. Bu baxımdan, Ermənistana qarşı inamsızlıq hər addımda hiss olunur.

***- Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşması və bunun fonunda Ermənistanda prezident V.Putinə qarşı ittihamların irəli sürülməsi nəticə etibarı ilə Rusiyanın bu ölkəni cəzalandırmasına gətirib çıxara bilərmi?***

- Əslində, Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətdədir. Əslində, iqtisadi, siyasi və hərbi cəhətdən Ermənistan adlı bir dövlət də qalmayıb əslində. Ermənistanın heç Avropa İttifaqı ilə imzaladığı sazişi yerinə yetirmək imkanları da şübhə altındadır. Bu cür situasiya elə Ermənistan üçün bir cəzadır, əsində.

***- Hazırkı məqamda Rusiya-Ermənistan qarşıdurmasının dərinləşməsi Rusiyanın Ermənistandan imtina etməsinə və bununla da Dağlıq Qarabağ münaqişəsinin həlli üçün minbüt şəraitin yaranmasına gətirib çıxara bilərmi?***

- Dağlıq Qarabağ münaqişəsinin həlli üçün işğalçılara beynəlxalq təzyiqin artması və Azərbaycan Ordusunun güclənməsi əsas amillərdəndir. Təbii ki, Rusiyanın Ermənistana yardımının azalması əsas həlledici məqamlardan olardı. Azərbaycan Prezidentinin uğurlu xarici siyasəti bütün bu istiqamətlərdə milli maraqları önə çəkməklə xeyli uğurlar əldə edir. Elə Avropa İttifaqının qəbul etdiyi Bəyannamədə üzv ölkələrin ərazi bütövlüyünün qorunması prinsipnin bir daha təsbit olunması Azərbaycan diplomatiyasının uğurudur.

Ha öncə, Ermənistan prezidentinin Rusiya kanallarına verdiyi müsahibələr də istehza obyekti olmuşdu. Ermənistanın Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı Sazişini imzalaması isə Rusiya ictimaiyyətində kinayəli münasibətə səbəb olub. Əslində, bu saziş də yarımçıq bir sazişdir, sazişin əsas elementi ilə Azad Ticarət bəndi çıxarılıb.

***- Rusiyanın NTV kanalında yayımlanan verilişlərin birində Ermənistanın Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində Avropa İttifaqı ilə tərəfdaşlıq razılaşması imzalaması ərinə xəyanət edən əxlaqsız qadın kimi dəyərləndirilib. Ermənistanın Rusiyanın müxtəlif dairələri yanında inamı və etibarını itirməsini nə ilə izah etmək olar?***

- Rusiya kanalında yayımlanan verilişdə bu cür alçaldıcı bənzətmə, əslində, ermənilərin ən yaxın müttəfiqinin onlara münasibətini bir daha göstərir. Bu bənzətmə, bir daha göstərir ki, əslində, Rusiya Ermənistana inanmır, hər zaman ona xəyanət edəcəyini bilir. Bu da təsadufi deyil, çünki ermənilər tarixən ən sadiq olduqları türklərə və azərbaycanlılara xəyanət etmişlər, bu faktlar hər kəsə bəllidir. Bu fakt

**GÜLYANƏ**

## Dövlət Komitəsi: Azərbaycanın "Patent haqqında" Qanunu sadələşdiriləcək

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birgə Azərbaycan Respublikasının "Patent haqqında" Qanunu patent hüququ sazişinə uyğunluğu baxımından öyrənilib. Bu istiqamətdə müvafiq qanunvericilik dəyişiklikləri ilə bağlı təşəbbüslər layihəsi hazırlanır və yaxın zamanda hökumətə təqdim olunacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sədrinin müavini Niyazi Rəhimov jurnalistlərə müsahibəsində bildirib. Sözügedən dəyişikliklərlə bağlı məlumat verən sədr müavini deyib ki, burada prioritet məsələ ixtira üçün ərizə verildikdə vaxta qənaətin əldə olunmasıdır: "Əgər öncəki təcrübələrdə müvafiq patent qurumuna iddia ərizəsi verilərkən bir neçə sənədin təqdim olunması və prosedurların yerinə yetirilməsi nəzərdə tutulurdusa, artıq bu prosedur mümkün qədər sadələşdiriləcək. Bu bir tərəfdən iddiaçının işini asanlaşdırır, digər tərəfdən isə milli patent qurumunun da həyata keçirdiyi proseduru minimuma endirir".

## OPEC+ sazişinin müddəti 2018-ci ilin sonunadək uzadılıb




Mövcud OPEC+ sazişinin müddəti daha doqquz ay, yəni gələn ilin sonunadək uzadılıb. AZƏRTAC "bloomberght.com"a istinadla xəbər verir ki, OPEC nümayəndələrinin sözlərinə görə, OPEC+ ölkələrinin nazirlərinin 3-cü iclasında bu barədə qərar qəbul edilib. İclasda bazarda hələ ki tarazlığın yaranmadığı qeyd olunub. Xatırladaq ki, bu il mayın 25-də OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində OPEC-ə üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək uzadılması barədə razılıq əldə olunub. Mövcud OPEC+ sazişinin müddəti gələn il martın 31-də sona çatır.

# Rüstəm İbrahimbəyovun erməni sevgisinə züy tutan Əkrəm Naibov xəyanəti

***Bəzən elə bir cinayət halları olur ki, cəmiyyət də bir müddət bu hadisəyə öz münasibətini bildirir. Vətənə, dövlətə və xalqına xəyanət edənləri isə heç vaxt bağışlanılmayan və ermənilərə daha böyük sevgisi olan kinorejissor Rüstəm İbrahimbəyov və bu sevgiyə züy tutan yazıçı Əkrəm Naibovdan bir daha yazmaq istəyirəm.***

Yenə də xəyanətləri bənzər olan bu fərdlər 2018-ci ildə keçiriləcək prezident seçkiləri ərəfəsi sosial şəbəkələrdə hətərən-pətərən danışmağa başlayıblar. Onun ermənilərlə ünsiyyəti, fəaliyyəti və onlara olan məhəbbəti haqqında reallıq artıq hər kəsə bəllidir. Məhz bu səbəbdəndir ki, erməni maraqlarının ifadəçisi olan R.İbrahimbəyov xəyanətkar Ə.Naibovu müdafiə edərkən də, heç kəs buna təəccüb etmədi. Çünki hər ikisinin xəyanətləri bənzərdir.

R.İbrahimbəyovun bir kinorejissor kimi fəaliyyətinin "pərdəarxası oyunlar"ı üzə çıxdıqca, onun ermənilərə olan sevgisi də özünü açıq göstərir. Bu isə, təbii ki, torpağında boy atdığı, şan-şöhrətə çatdığı vətənə xəyanətdən savayı bir şey deyil!

## Bənzər-bənzər züy tutanı



Bu xəyanətə züy tutanlardan olan Ə.Naibovun "Daş yuxular" romanı milli xəyanət faktıdır. Qeyd edək ki, "Daş yuxular" romanı, müəllifin milli xəyanət duyğuları üzərində köklənmiş cızma-qarası ictimaiyyətin haqlı qəzəbinə və nifrətinə səbəb oldu. "Daş yuxular" erməni diktəsi, erməni düşüncəsi, erməni təfəkkürü və erməni təxəyyülü ilə yazılmışdır. Bu yazı bütünlüklə birbaşa Azərbaycanın milli-mənəvi, o cümlədən mədəni, dini, əxlaqi dəyərlərinə qarşı çevrilən, ermənilərin mənafeyinə xidmət göstərən və onlardan ötrü göydəndüşmə bir fürsətdir desək, yanılmarıq. Bu yerdə bir faktı xatırlatmaq istərdim. Ə.Naibovun "biz Bakıda və Sumqayıtda baş verən olaylara bəşəri dəyərlərə hörmət nöqteyi-nəzərindən münasibətimizi özümüz bildirməliyik", - söyləməsi qətiyyən qəbuledilməzdir. Soruşuruq ki, 1989-1990-cı illərdə Bakıda və Sumqayıtda baş verən hadisələri Mixail Sergeyeviç Qorbaçovun birbaşa dəstəyi ilə, qatı cinayətkar Qriqoryan başda olmaqla, erməni mafioz qrupları təşkil etməmişdimi? Bu cinayət faktlarla sübuta yetirilməmişdirmi? Doğrudanmı fil qulağında daş yuxusuna gedən xəyanətkar yazıçı bütün bunlardan xəbərsizdir?

Qoynunda yaşadığı Azərbaycan adlı Vətənin ərazisinin 20 faizindən çoxunun düşmən tapdağı altında inləməyindən, 1 milyondan çox qaçqının-köçkünün ağır həyatından, torpaqları qabardan şəhid məzarlarından, hələ də əsirlikdə qalan ana-bacılarımızdan, itkin düşmüş oğullarımızdan xəbəri olmayan, əksinə, erməni "qardaş-bacılarına" yas saxlayan bir yazıçının yuxuda gördüklərini mənfur "Daş yuxular" yazısına köçürməsi xəyanətkarlıq deyilmi? Bu torpağın çörəyi, suyu, havası ilə bəslənən, lakin millətinə düşmən olanlara məhəbbət izhar edən, öz millətini aşağılayan və utanmadan öz nifrətini dünyaya faş edən "ziyalıya" nə ad vermək olar? Bu yerdə deyirlər, "utanmasan oynamağa nə var ki?"

Göründüyü kimi, bənzər xəyanətkarlar R.İbrahimbəyovu, istərsə də Ə.Əylislini vadar edən nədir ki, ermənilərin müdafiəsinə qalxırlar və təcavüzkar Ermənistanla əraziləri 20 faiz işğala məruz qalan, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan Azərbaycanı eyniləşdirirlər? Bu, nəinki rəzilliyin, satqınlığın göstəricisidir, əslində, milli dövlətçiliyə arxadan zərbə və xalqa xəyanət deməkdir! R.İbrahimbəyovun Azərbaycan dövlətinin və xalqının üzləşdiyi faciələr silsiləsindən xəbəri yoxdur. Öz ambisiyalarının və şəxsi maraqlarının girovuna çevrilmiş, öz mövqeyi ilə anti-Azərbaycan dairələrin dağıdıcı fikir və planlarını dəstəkləyən belələrindən başqa mövqe gözləmək düzgün deyil. Daha dəqiq desək, balayanların, avanesovların, yəni ermənilərin yaxın dostunun Azərbaycan xalqına münasibəti yalnız bu cür ola bilər. Guya R.İbrahimbəyov bilmirdi ki, 1987-ci ildən başlayaraq, dostları bağırır ki, "Qarabağ Ermənistana birləşdirilməlidir!" Erməni əsgərlərinin "vətən borcları"nı yerinə yetirməsindən guya təəssüflənən kinorejissor, çox güman ki, Qarabağ mövzusunda film çəksəydi, həmfikri Ə.Naibovun "Daş yuxular"ını ssenariləşdirərdi. Ə.Naibovun "roman"ının xalq tərəfindən yandırılmasından yanıqlı-yanıqlı söz açan kinorejissor həmin mənzərəni çəkər və bizi mədəniyyətsiz xalq qismində təqdim edərdi. Dəhşətlisi odur ki, R.İbrahimbəyov "onlar Qarabağı özlərininki, biz də öz torpağımız sayırıq. Məncə, bu, müzakirə mövzusudur. Bu, danışıqlar və elmi araşdırmalar mövzusudur" deyirsə, Azərbaycan tarixini şübhə altına almırmı? Daha sonra o, işlətdiyi fikirlərlə sovetlərin həsrətini çəkdiyini ortaya qoyur ki, bu da müstəqilliyimizə xəyanətdir.

Bütün bunlara baxmayaraq, erməni maraqlarının ifadəçisi olan qoca rejissor Azərbaycan dövlətinə və xalqına qara yaxmaqda davam edir. "Azərbaycan və Ermənistan vaxtilə bir dövlət olublar. Nə qədər ki, biz bir dövlətdə yaşayırdıq, heç bir torpaq iddiaları yox idi".

Beləliklə, bənzər xəyanətkarlar olan R.İbrahimbəyov və Ə.Naibov bu murdarlardır və bu, cəmiyyət tərəfindən verilən real qiymətdir! Çünki murdarlıq müqəddəsliyin əksi, insanın xain və alçaq xislətinin görünən əməllərdə ifadəsidir! Ona görə də, belə murdarlar layiq olduqları qiyməti alıb, xalqın nifrətini qazanıblar.

***Rəfiqə HÜSEYNOVA***

# Müxalifətin mühacir biznesi iflasa uğrayır

***Qarşıdan 2018-ci il prezident seçkiləri gəlir və Azərbaycan olduqca həssas bir dönəmə qədəm qoyur. Tam məsuliyyətlə söyləmək olar ki, nəinki müxalifətin seçkidə cüzi belə uğur qazanacağı proqnozlaşdırılmır, hətta müxalif qüvvələrinin özləri buna inanmır. Buna baxmayaraq, Azərbaycan üçün həsas olan dönəmlərdə xarici qüvvələr fəallaşmağa başlayır. Bəzi xarici güclər xüsusilə də, ölkənin hüdudlarından kənarda olan müxalif liderlərə dəstək verməklə, Azərbaycana əzələ nümayiş etdirmək istəyirlər. 2013-cü il prezident seçkilərində "Milli Şura"nın yaradılması, Rüstəm İbrahimbəyov adlı kino çəkənin ortaya atılması kimi projelərə rast gəlinib. Təbiidir ki, məkrli niyyətdə olan qüvvələr, real siyasi mübarizədə təbliğat ruporuna çox böyük zərurətin olduğunu dərk edir və məhz buna görədir ki, yeni-yeni KİV-lər meydana çıxır və nəzərdə tutulan layihə uğursuzluğa düçar olan kimi, həmin media resursları da fəaliyyətlərini dayandıraraq yaddaşlardan silinir.***



## Aktivliyi sinusoidal xarakter daşıyan mühacir çoxbilmiş kimi özünü aparır

Azərbaycanda Əli Kərimliyə, İsa Qəmbərə meydan oxuyan müxilifət nümayəndələrindən biri də, hazırda ABŞ-da mühacir həyatı yaşayan "GAP" lideri Rəsul Quliyevdir. Bu siyasi personal uzun illərdir ki, hakimiyyət uğrunda mübarizəyə girişib, ancaq hazırkı dönəmə kimi də, daima acınacaqlı məğlubiyyətlə qarşılaşıb. Uzun müddətdir öz qınına çəkilən R.Quliyevin davranışlarında yeni fəallıq nəzərə çarpır və yenə də medianın gücündən yararlanmağa çalışır. Siyasi aktivliyi sinusoidal xarakter daşıyan və vaxtaşırı fəallaşan bu məxluqun isə göründüyü kimi, bir məsləhətçi tövrü var, sanki hər sahədə, hər şeyi hamıdan çox bilirmiş kimi özünü aparır. Korrupsiyadan, ruşvətxorluqdan ağız dolusu danışan, özünü rüşvətə nifrət edən biri kimi təqdim etməyə, dahadoğrusu, sırımağa çalışan "GAP" lideri bilməlidir ki, onun "Azərneftyağ"da sərgilədiyi fəaliyyət hamıya bəllidir. Zavod direktoru olan vaxt hər gündə nə qədər rüşvət almaq lazım gəlir ki, Amerikaya köçəndən sonra illərlə xərcləyəsən, qurtarmasın? Təbii ki, bu mühacirin fikirlərinə məhəl qoyan yoxdur və aydındır ki, biri digərini təkzib edən bəyanatlar daha çox "mən də varam" prinsipindən qaynaqlanır.

## Leyla Yunusun özünü fədakar kimi qələmə verməsi gülüncdür

Azərbaycana ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələrin digər bir projesi Leyla və Arif Yunuslardır. Mühacir həyatı seçmiş bu cütlüyün fəaliyyəti, mövqeyi və fikirləri də öncəki kimi təkziblərdən ibarətdir. Amsterdamın və Praqanın rahat bir guşəsində özünə yer edib, başqalarını mahiyyətini təyin edə bilmədiyi mübarizəyə səsləməklə özünü fədakar kimi qələmə vermək gülüncdür. Fədakarlığı, konstitusiyanın müvafiq maddəsi ilə azadlıqdan məhrum edilərkən, həbsxana həyatı yaşayarkən niyə nümayiş etdirmirdi L.Yunus? O zaman özünü xəstəliyə vurub, ağlayıb ağı deyərək, qızının tək qaldığını, ailəsinin çıxılmaz vəziyyətdə olduğunu nəzərə almaqla ona rəhm edilməsini, mərhəmət göstərilərək əfv edilməsini diləyən, L.Yunus deyildimi? Məhbusluq zamanı niyə yox idi bu nümayiş etdirməyə cəhd etdiyi qürur hissi? Eslingendəki çıxışında Azərbaycan hakimiyyətinə ünvanladığı hədyanla ölkənin rüsvayçılıq görüntüsünü yaratmağa cəhd edən L.Yunus məgər başa düşmürmü ki, çətin durumda, mərhəmət umanda hakimiyyəti intellektual, qayğıkeş adlandırıb, qrant mənimsəmək vaxtı çatanda, yaraşmayan ifadələr səsləndirmək ən böyük rüsvayçılıqdır? Belə bir rüsvayçı durumda olan, hər dəfə özünü təkzib edərək gülünc vəziyyətə qoyan birinin siyasi baxışı və fəaliyyəti nə dərəcədə diqqəti cəlb edə bilər? Əlbəttə ki, nə qədər səy göstərib özünü fədakar kimi təqdim etməyə çalışan Yunusların fəaliyyəti mənasızdır və ümumiyyətlə bütün səyləri əbəsdir.

## Əli Kərimli hakimiyyətə gəlmək üçün şeytanla da əməkdaşlıq edər

Müxalifət və onun çevrəsinin Azərbaycan dövlətçiliyinə qarşı çıxan, Avropadan dövlətimiz əleyhinə fəaliyyət göstərən şəxslərlə əlaqələri danılmazdır. Hazırda "Milli Şura"nın Avropada əsas dayaqlarından biri Hollandiyada yaşayan, Azərbaycanda vətən xaini kimi tanınan Ataxan Əbilovdur. Ə.Kərimlinin dostu və tələbə yoldaşı olan bu şəxs Hollandiyada "Oyan" adında hərəkat yaradıb və bu hərəkat vasitəsilə Avropa fondlarından 350 min avro alaraq, Azərbaycan əleyhinə təbliğat aparır. 2009-cu ildən Niderland Krallığına mühacirət edərək, siyasi mühacir statusu alan və hazırda Hollandiyanın Amsterdam şəhərində yaşayan Ataxan Əbilov, eyni şəhərdə yaşayan Hümmətovlarla və Azərbaycanın siyasi mühacirləri ilə yaxın əlaqələrə malikdir. A.Əbilovla bağlı faktlar saysız-hesabsızdır. Belə ki, onun sağ əli sayılan, Avropada yaşayan, özünü "Milli Şura" və AXCP-çi sayan Vüqar Niftəliyev adlı xəyanətkar ətrafındakı iki gənclə türk bayrağını ayaqları altına salaraq, foto çəkdirərək, facebookda paylaşıb. A.Əbilov və V.Niftəliyev kimiləri ilə əlaqələr yaradan, dosluq edən birinin, Ə.Kərimlinin milli maraqlardan, xalq adından danışmağa nə dərəcədə haqqı çata bilər? BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı Kərimlini xarakterizə edərkən, "Ə.Kərimli elə bir tipdir ki, necə deyərlər, şeytanla da əməkdaşlıq edər ki, təki hakimiyyətə gələ bilsin, maddi qazanc əldə etsin" deyir. Avropaya üz tutan azərbaycanlı mühacirlər məsələsi yenidən gündəmə qayıdıb. Ölkə daxilindəki siyasi partiyaların getdikcə mühacir biznesi alverini gücləndirdiyi görünür. Müxalifət partiya rəhbərləri ittihamları qəbul etməyə bilər, amma internetdə və qəzet səhifələrində gözümüzlə gördüklərimiz onu deməyə əsas verir ki, xaricə gedib mühacir statusu ilə yaşamaq istəyən insanlara bəzi partiyaların saxta sənədlər verdiyi təkzib edilə bilməz. Bunlar anti-Azərbaycan şəbəkəsinə xidmət edən və ondan bəhrələnən insanlardır. Onlar üçün hansı müxalif partiyada olmağın önəmi yoxdur. Onlar xaricə gedib Azərbaycan əleyhinə tədbirlərdə iştirak edirlər, dövlətimizin imicinə zərbə vurmağa çalışırlar, xüsusilə, Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində qəbul edilən hər hansı qərar, yaxud qəbul ediləcək qərar ərəfəsində dövlətimizin əleyhinə fəaliyyət göstərir və çıxışlar edirlər. Bütün bunlar, onu göstərir ki, onlar anti-Azərbaycan şəbəkəsinin üzvləridir.

Harada olmasından asılı olmayaraq, Azərbaycan əleyhinə aksiyalarda iştirak etmək, dövləti gözdən salmaq məqsədilə bütün çirkin əməllərə əl atmaq, ilk növbədə, bir vətəndaş kimi qəbuledilməzdir və xəyanətkar kimi dəyərləndirilməlidir. Ölkəsini və vətənini tərk edib xaricə üz tutan, mühacir həyatı seçən insanlar əgər xalqdan qisas almağa cəhd edirsə, onları, hətta azərbaycanlı hesab etmək belə olmaz.

***İnam HACIYEV***

# Azərbaycan xalqının toy ənənələri

***Qeyd etdiyimiz kimi, Azərbaycanda evlənmənin ənənəvi yolu qızı elçilik vasitəsilə nişanlayıb, toy etmək olmuşdur.***

"Toy çoxlu adət və ənənələrlə müşayiət olunan, qızbəyənmədən başlamış gəlinin ər evində üzə çıxmasınadək davam edən çoxtəbəqəli və mürəkkəb mərasimdir.

Xalq arasında "toy" dedikdə, müasir evlənmə prosesinin son mərhələsi, qonaqlıqla başa çatan şənlik, çalıb-oynamaq mərasimi nəzərdə tutulur. Bu da təsadüfi deyildir. Ulu babalarımız da "toy" dedikdə, şənlik məclisi, qonaqlıq, yeyib-içmək, çalıb-oynamaq başa düşüblər. El arasında deyilir: "Filankəs şadyanalıq eləyib toy çaldırdı". Bu fikir "Kitabi-Dədə Qorqud" dastanında öz təsdiqini belə tapmışdır: "Xanlar xanı xan Bayındır ildə bir kərə toy edib, Oğuz bəylərin qonaqlardı". Evlənmə prosesinin son mərhələsində icra olunan qonaqlıq-şənlik məclisi isə "Kitabi-Dədə Qorqud"da "toy-düyün" adlandırılır: "Qırx gün-qırx gecə toy-düyün elədilər". Odur ki, bütövlükdə evlənmə prosesi üçün etnoqrafik anlayış kimi "toy-düyün" ifadəsinin işlədilməsi daha məqsədəuyğundur və gerçəkliyi daha dolğun əks etdirdiyinə görə elmidir.

Novruz, Ramazan və Qurban bayramlarında oğlan evi nişanlı qıza bayramlıq göndərirdi. Bu adətə Şəki bölgəsində "qudalıq" deyirdilər. R.Əfəndiyev Şəkidə "qudalıq" adətini belə təsvir edir: "Bayramlarda oğlan evi nişanlı qızın bayramlığını göndərərdi. Novruzqabağı "çərşənbə yemişi", Qurban və Ramazan bayramlarında tel halva, paxlava, peşvəng və s. halvalar xonçası, üstündə də əlbəsəlik (paltarlıq - red), ipək parça göndərilərdi. Qurban bayramında boğazında ipək parçadan əlbəsəlik olan qoç göndərilərdi. Bu xonçaların qarşılığı qız evi tərəfindən göndərilməli idi. Məsələn, qız evinin oğlan evinə Qurban qoyununun ətindən qutab, lüləkabab, girs və dolma göndərməsi adətdi".

Adətə görə, nişanlı qıza atasının evində olduğu müddətdə oğlan evi geyim alıb göndərməyə borclu idi. Bakı şəhərində yay aylarında qız evi bağa köçərkən, oğlan evi "bağbaşı" aparmalı idi. H.Sarabski bu barədə yazırdı: "Şorqoğalı, şəkərbura, şəkərçörəyi, qənd, çay, qız üçün yay paltarı, əla akulə düyüsü hazırlayıb,gəlinlərini görməyə bağa gedərdilər. Bunun adına "bağbaşı" deyərdilər".

Nişandan sonra oğlan evi böyük toya hazırlaşmağa başlardı. Gəlin üçün pal-paltar və zinət əşyaları alınar və toy tədarükü görülərdi. Bu müddətdə qız evi də cehiz tədarükünə başlardı. İmkanlı və ehtiyatlı ailələrdə qızları üçün cehizi lap kiçik yaşlarından hazırlardılar. Gəlinin köçməsinə az qalmış qohum və qonşu qadınlar iməciliyə yığışar, gəlinin yorğan-döşəyini sırıyar və cehizlərini qaydaya salardılar.

Qəzənfər Rəcəbli yazır: "El adətinə görə, toy-düyün şənliklərindən əvvəl gəlin köçəcək qız növbə ilə qohum-əqrəba tərəfindən qonaq çağırılardı. Qonaqlıqların sonunda qohum-qardaş gəlin köçəcək qıza yorğan, döşək, yastıq, nazbalış, nalça, xalça, palaz, mis qazan və s. qab-qacaq hədiyyə verərdi. Həmin hədiyyələr gəlinin cehizinə əlavə olunardı.

Ənənəyə uyğun olaraq, oğlan və qız evi axund və el ağsaqqalları ilə məsləhətləşdikdən sonra razılaşıb toy şənliklərinin günlərini müəyyən edərdi. Öncə, qız evində toy şənlikləri olardı. Adətə görə, qız evindəki toy xərcini oğlan evi çəkərdi. Oğlan evindən boynuna qırmızı parça bağlanmış və ya başına qırmızı rəng vurulmuş bir neçə qoç və müxtəlif ərzaq məhsulları göndərilərdi.

Qız evində təşkil olunan toy şənliklərindən biri "paltarkəsdi" adlanırdı. Şirvan bölgəsində ona həm də "bazarlıq" deyilirdi. "Paltarkəsdi" günü çalğıçıların iştirakı ilə oğlan evində səhərdən başlayaraq çalıb-oynayardılar. Günorta üstü gəlin üçün alınmış palpaltarı sandığa, şirni-xuşkəbər və ərzaq məhsullarını isə zənbillərə yığıb musiqi sədaları altında qız evinə aparardılar. Şeyləri qız evinə gətirən kişilər çalıb-oynayanlara tamaşa etdikdən sonra bir stəkan çay içərək gedərdilər. Qadınlar isə ürəkləri istədikləri qədər rəqs edər, şənlənərdilər. Sonra isə oğlanın anası "başıbütöv", yəni əri, oğlu və qızı olan bir qadın ilə otaqların birində paltarları sandıqdan çıxarıb xonçalara yığardı. Oğlanın qohumlarından bir neçə qadın xonçaları başlarına qoyub, oynaya-oynaya məclisə gətirər və ortada yerə qoyardılar. "Başıbütöv" qadın xonçaların yanında oturaraq şeyləri birbir götürər, ayaq üstə durmuş bir başqa qadına verərdi. Öncə gəlinin baş örpəyi verilərdi. Ayaq üstə durmuş qadın da baş örpəyini məclisdəkilərə göstərib deyərdi: "Bu gəlinin baş örpəyi! Allah mübarək eləsin, görənlər görüb, görməyənlər də görsün!" Beləliklə, gəlin üçün gətirilmiş bütün şeylər nümayiş etdirilər və sonra yenidən xonçalara yığılardı. Sonra birinci olaraq oğlanın anası paltarların üstünə pul atardı. Qızın anası da bir o qədər pul atardı. Daha sonra oğlanın və qızın bütün qohumları, qonşuları və tanışları hallı-halına görə paltarların üstünə pul atardılar. Oğlanın və qızın anaları pul atanları yaxşı yadda saxlayardılar ki, gələcəkdə əvəzini çıxsınlar. Yığılan pullar ayaq üstə duran həmin qadına verilərdi. Ona görə də, çox vaxt bu vəzifə üçün dul qadın seçilərdi ki, yığılan pullar ona kömək olsun. Paltarları aparıb o biri otaqda yenidən sandığa yığdıqdan sonra oğlanın anası sandığı qıfıllayıb, açarını qızın anasına verərdi. Başqa bir otaqda isə evin kişiləri qənd və noğulu nəlbəkilərə yığardılar. Hər nəlbəkiyə bir ovuc qənd və bir ovuc noğul qoyulardı. Bir qadın həmin nəlbəkiləri xonçaya yığıb məclisə gətirər və qonaqlara paylardı. Şirniyyat alanlar "mübarək olsun", - deyib noğul ilə qəndi yaylıqlarına boşaldar və dağılışardılar. Məclisin sonunda qızın anası on yaxın adamlarından on-on beş nəfərə "paltar-kəsdiyə" qalmağı təklif edərdi. Oğlanın anası da qabaqcadan bir o qədər qadının vədəsini alardı."

Quba bölgəsində "paltarkəsdi" mərasimi paltar və "bazarlıq" aparıldıqdan sonra, ayrıca təyin olunmuş bir gündə olardı. R.Babayeva Quba şəhərində "paltarkəsdi"ni belə təsvir edir: "Oğlan anası qız evinə xəbər göndərib sabah bir neçə qadınla "paltarkəsdiyə" gələcəyini bildirərdi. Qız anası oğlan evindən xəbər bilən kimi tədarükə başlar və ən yaxın adamlardan bir neçə qadına: "Sabah bizə paltarkəsdiyə gəlin", - deyə xəbər göndərərdi. O günün sabahı nahar vaxtı dəvət olunanlar qız evinə paltarkəsdiyə gedərdilər. Oğlanın anası da on nəfərə yaxın qonum-qonşu ilə gələrdi. Gələnlər xalılar üzərində salınmış nalçalar üstündə oturub söhbətə başlardılar. Onların qənşərinə süfrə salınar və şirin çay, pendir-çörək, şəkərtıxma, şorqoğalı və i.a. şirniyyat gətirilərdi. Paltarkəsdiyə yığışanlar yeyib-içib: "Mübarək olsun, oğullu-qızlı olsun!" - deyib süfrədən çəkiləndən sonra yemək süfrəsi yığılar və otağın ortasına bir "dəstərxan" süfrə, Quba bölgəsində deyildiyi kimi, "qələmkar" süfrə sərilərdi. Qız adamı paltar sandığını gətirib ortalığa qoyar və paltarları çıxarıb süfrənin üstünə yığardı. Sonra qızın öz paltarlarından bir don, bir köynək, bir çutqu gətirib boğçanın üstünə qoyardılar. "Başıbütöv" qadın paltar biçməyi bacarırdısa, qızılı həmin paltarlarının üstündə parçalardan biçərdi. Biçməyi bacarmayanda isə, parçanın üstünə qayçı qoymaqla kifayətlənərdi. Paltar kəsiləndən sonra hamı: "Allah mübarək eləsin, oğullu-qızlı olsun, qoşa qarısın!" - deyərdi. Paltar biçilib qurtarandan sonra bütün paltar-parça sandığa yığılar və bir yana qoyulardı. Yenidən qonaqların qarşısına yemək süfrəsi sərilər və bir qadın öncə oğlanın anasının, sonra isə o birilərinin əlinə aftafa-ləyəndə su tökərdi. "Paltarkəsdiyə" çağırılanlara varlı ailələrdə zəfəranlı aş, toyuq plov, yanında səbziqovurma, çığırtma, badımcan dolması və nar qovurması, orta səviyyəli ailələrdə südlü plov (yanında qarası, kişmiş, xurma və quru kütüm və ya xəşəm balığı olmaqla), yoxsul ailələrdə bozbaş, yaxud dolma və dovğa verilərdi. Yeməkdən sonra qadınlar mürəbbəli və ya limonlu çay içib, xeyir-dua verərək dağılışardılar.

"Paltarkəsdi" mərhələsindən sonra toy-düyünün son mərhələsi olan böyük toy başlayardı.

Qaynaqlarda Azərbaycanda qədimdə toyun 40 gün - 40 gecə edilməsi haqqında məlumat vardır. XIX-XX əsrlərdə isə böyük toy varlı ailələrdə 7 gün - 7 gecə, orta təbəqəli və yoxsul ailələrdə 3 gün, çox vaxt isə bir gün davam edirdi.

Toy şənliyinə 2-3 gün qalmış "çağırışçı", bəzi bölgələrdə "salaçı" və ya "xəlfə" adlanan bir nəfərə müəyyən qədər noğul verib adamları toya dəvət etməyə göndərərdilər. Çağırışçı evləri gəzib noğulu paylar və adamları toya dəvət edərdi. Dəvət olunanlar "mübarək olsun", - deyib şirni nəlbəkisinə yumurta, meyvə və ya xırda pul qoyardılar.

Qəzənfər Rəcəbli qeyd etdiyi kimi, toya bir neçə gün qalmış oğlan evində çörək və yuxa bişirib tədarük görərdilər. Ətlik heyvanlar isə toydan bir gün əvvəl axşam kəsilərdi. Həmin axşam yaxın qohumlar və qonşular bəy oğlanın evinə məsləhətə yığışardılar. Bu vaxt sabahkı toy üçün heyvanlar kəsilər və ət tədarük edilərdi. Kişilərdən bir-iki nəfər əti doğrayar, qadınlar isə dolmalıq və lüləkabablıq əti döyüb hazırlayardılar. Bu ənənə Şirvan bölgəsində "danakəsdi" adlanırdı. Qadınlar isə, öz aralarında ona "ətdöydü" deyirdilər. "Danakəsdi" zamanı kəsilmiş heyvanların içalatından qovurma hazırlayıb gələn qonaqlara axşam yeməyi verərdilər. Yeməkdən sonra vəzifə bölgüsü aparılardı: toyxana quranlar, toyu idarə edəcək adamlar, xörək bişirənlər, xörək paylayanlar, çayçı, çay paylayanlar, qonaq qarşılayanlar, gəlin gətirmək üçün gedəcək adamlar, çalğıçıların dalınca gedənlər və s.

Toy şənliyi üçün bəy oğlanın həyətində və ya başqa münasib yerdə böyük çadır qururlardı. Ona "toyxana" və ya "mağar" deyilərdi. Toy Azərbaycanın bütün bölgələrində qara zurna ilə başlayardı. Zurnaçılar toyxanaya gələn kimi hündür bir yerə çıxıb musiqi havaları çalmaqla toyun başlandığını xəbər verərdilər. Uzaqdan zurna səsini eşidən kənd əhli toyxanaya tərəf axışardı. Toya gələnlər təzə və təmiz paltarlarını geyər və bəzənərdilər. Toy kənd əhalisinin ümumi şənliyinə çevrilərdi.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## *2025-ci ilədək Fransada müsəlmanların sayı azı 8,5 milyon nəfərə çatacaq*

2025-ci ilə qədər Fransa ərazisində yaşayan müsəlmanların sayı azı 12,7 faiz artaraq 8,5 milyon nəfərdən çox olacaq. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə məlumat ABŞ-ın "Pew Research Center" tədqiqat institutunun hesabatında yer alıb.

Tədqiqat institutu Avropada müsəlman əhalinin sayının artmasının üç mümkün ssenarisini nəzərdən keçirib. Mərkəzin hesablamalarına əsasən, ötən il Fransada müsəlmanların sayı 5,7 milyon nəfər (əhalinin 8,8 faizi) olub. Birinci ssenari üzrə səkkiz ildən sonra "sıfır miqrasiya" şəraitində onların sayı 8,6 milyon nəfərə qədər artacaq. Yalnız leqal mühacirətə yol veriləcəyi ikinci ssenaridə müsəlmanların sayı 17,4 faiz artaraq 12,6 milyon nəfərə çatacaq. Üçüncü ssenari qanunsuz mühacirlərin böyük axının baş verəcəyi təqdirdə demoqrafik dəyişiklikləri ehtiva edir. Bu isə ölkədə İslam dininə sitayiş edənlərin sayının 18 faiz artması və 13,2 milyon nəfərə çatması ilə nəticələnəcək. Mütəxəssislər hesab edirlər ki, üçüncü ssenari nəzərdən keçirilsə, 2050-ci ilədək Avropa ərazisində yaşayan müsəlmanların sayı hazırkı göstəriciyə nisbətən təxminən üç dəfə artaraq, qitə əhalisinin 14 faizini təşkil edəcək.

## *İngilis alimləri: Pendir şəkərli diabet riskini azaldır*

Gündə cəmi iki tikə pendir yeməklə II tip şəkərli diabet riskini 12 faiz aşağı salmaq olar. Bu tip diabet artıq çəki ilə bağlıdır. Alimlərin fikrincə, bunun səbəbi pendirin fermentasiyasındadır. Britaniya və Hollandiya alimləri problemi araşdırmaq fikrinə gəlmişdilər. Onlar 16800 sağlam və 12400 şəkərli diabet xəstəsini müayinə ediblər. Məlum olub ki, gündə 55 qram pendir yeyən adamlarda diabet riski 12 faiz aşağıdır. Çox yəqin ki, pendirin tərkibindəki probiotik maddələr insan orqanizmində xolesterinin miqdarını aşağı salır. Üstəlik, pendirdə insan orqanizmi üçün çox xeyirli D vitamini, kalsium və maqnezium var.

## *Xəbərdarlıq: Kalsium qəbulu ürək tutmalarını artırır*

Ekspertlər bu nəticəyə 10 il ərzində 23.980 nəfər arasında apardıqları araşdırmalardan sonra gəliblər. Heydelberq Araşdırma Mərkəzinin mütəxəssislərinin açıqlamalarına görə, sümük möhkəmləndirən kalsiumun qəbulu yaşlı insanlarda ürək tutmalarını artırır. Alman ekspertlər kalsium ehtiyacını həblərlə ödəməkdənsə xüsusi pəhrizlə əvəzləməyi məsləhət görürlər.

Ekspertlər bu nəticəyə 10 il ərzində 23.980 nəfər arasında apardıqları araşdırmalardan sonra gəliblər. Tədqiqatda kalsium qəbul edənlərlə etməyən qruplar müqayisə olunub. Kalsium qəbul etməyən 15.959 nəfər arasında 851 ürək tutması qeyd olunub. İkinci qrupda isə bu hal 86% daha çox olub. Alimlərin açıqlamasına görə bu nətcələr ürək tutmasına kalsiumun səbəb olduğunu sübut edir. Oklend Universitetinin mütəxəssisləri də kalsium əlavələrinin təhlükəliyi ilə bərabər təsirinin də güclü olmadığını təsdiqləyiblər.

## *Amerikalı alimlər: Mürgüləmək beynin qavrama gücünü artırır*

Gün ərzində mürgüləmək beynin yeni informasiyanı qəbul etmək imkanlarını artırır. Amerikalı alimlər araşdırma işi üçün 90 nəfər könüllüdən istifadə edib. Dərketmə sınaqlarında bu adamlar bütün gün ərzində ayıq qalanlardan daha yaxşı nəticələr əldə ediblər.

Araşdırma işi göstərir ki, beyinə yaddaşı süzgəcdən keçirmək üçün qısa müddətli vaxt lazımdır ki, öyrənilən yeni faktları qəbul edə bilsin. Təcrübə zamanı sağlam şəxslərə səhər tezdən çətin tapşırıq verilib. Amma müəyyən müddətdən sonra onların yarısı qısa müddətli yatmağa göndərilib. Sınaq təkrar edilərkən mürgüləmiş şəxslərin tapşırığı daha yaxşı yerinə yetirdiyi məlum olub.

## Daniel Rikkardo: Bakı treki Formula-1 çempionatının ən ecazkar trasıdır



Yenidən Bakıda olmaqdan məmnunam. Hazırda Bakıda hava soyuq olsa da, burada çox isti qarşılandım. AZƏRTAC xəbər verir ki, bu sözləri Formula-1 üzrə dünya çempionatının bu ilin iyununda Bakıda keçirilən Azərbaycan Qran-Prisinin qalibi, "Red Bull Racing" komandasının pilotu Daniel Rikkardo jurnalistlər üçün təşkil etdiyi mətbuat konfransında deyib. Azərbaycan paytaxtının gözəl olduğunu və Bakı trekini çox sevdiyini vurğulayan avstraliyalı pilot deyib: "Bakı trasında hərəkət çox çətindir. Çünki yollar düz deyil. Əgər bir yerdə səhvə yol versən, bu, böyük uğursuzluqla nəticələnə bilər. Riski sevirəm. Burada sürəti anidən aşağı salmaq və yenidən artırmaq lazımdır. Bu baxımdan Bakı trasını çox bəyənirəm. Burada təkərlər yanmır. Bu da Bakı trekinin üstün cəhətlərindən biridir. Ona görə də sayıqlığı itirməməlisən".

Pilot çempionat ərzində ən ecazkar trasın Bakı treki olduğunu deyib: "Mən Bakıda, Azərbaycan Qran-Prisində qalib olmuşam. Burada heç bir dəyişikliyin olmasını istəmirəm. Bakı şəhər halqası əla vəziyyətdədir".



## Dünya şahmat tacı uğrunda matç Londonda keçiriləcək

Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2018-ci ildə dünya şahmat tacı uğrunda matçın Londonda keçiriləcəyini açıqlayıb. Matçın təqdimatında hazırkı dünya çempionu Maqnus Karlsen iştirak edib. AZƏRTAC xəbər verir ki, matç 2018-ci il noyabrın 9-dan 28-dək keçiriləcək. Onun mükafat fondu 1 milyon avro təşkil edəcək. Xatırladaq ki, Maqnus Karlsenin rəqibi 2018-ci ilin martında Berlində keçiriləcək iddiaçılar turnirində müəyyən olunacaq. Bu turnirdə Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov, Vladimir Kramnik, Sergey Karyakin, Aleksandr Qrişşuk (hər üçü Rusiya), Levon Aronyan (Ermənistan), Fabiano Karuana, Uesli So (hər ikisi ABŞ) və Din Lijen (Çin) mübarizə aparacaqlar. Qeyd edək ki matçın rəsmi saytı işə başlayıb. Təşkilatçılar turnirin rəsmi heşteqini (#LondonPlaysChess) təqdim ediblər. Hazırkı dünya çempionu 26 yaşlı Maqnus Karlsendir. O, 2013-cü ildə Hindistanın Çennai şəhərində yerli şahmatçı, 15-ci dünya çempionu Vişvanatan Ananda qalib gəldiyi vaxtdan bu titulun sahibidir.

## Çempionlar Liqasında oyunların vaxtı dəyişdirilib




UEFA-nın İcraiyyə Komitəsi Çempionlar Liqasında qrup mərhələsinin oyunlarının vaxtının dəyişdirilməsini təsdiqləyib. UEFA-nın saytında yer alan xəbərə görə, dəyişiklik 2018/19 mövsümündən etibarən olacaq. Oyunların bir qismi saat 19:00-da (Bakı vaxtı ilə saat 22:00-da), bir qismi isə 21:00-da (Bakı vaxtı ilə saat 00:00-da) başlaması nəzərdə tutulub. Qeyd edək ki, hazırda ÇL-in oyunları 20:45-də (Bakı vaxtilə saat 23:45) başlayır.

## "Barselona"nın baş məşqçisindən Arda açıqlaması



"Barselona"nın baş məşqçisi Ernesto Valverde komandadan ayrılacağı gözlənilən futbolçusu Arda Turanla bağlı açıqlama verib. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, o, türk yarımmüdafiəçinin bu mövsüm niyə bir dəqiqə də oynatmadığı ilə bağlı suala belə cavablandırıb: "Ardaya həmişə hörmət edirəm. Onun peşəkarlığına şübhə ilə yanaşmıram. Həkimlərimizə inanıram. Onlar Ardanın ayağından zədəli olduğunu deyirlərsə, deməli, elədir. Mən də hazır futbolçulara əsasən heyəti müəyyənləşdirirəm". Qeyd edək ki, A.Turan bu qış "Barselona"dan ayrılmaq istədiyini klub rəhbərliyinə bildirib. Onun "Monako"ya keçəcəyi iddia edilir.

## "Qarabağ" - "Neftçi" oyununa hakim təyinatı açıqlanıb



Topaz Premyer Liqasının 14-cü turunda sabah keçiriləcək "Qarabağ" - "Neftçi" oyuna hakim təyinatı açıqlanıb. PFL-in saytında yer alan xəbərə görə, matçın baş hakimi Fariz Yusifov olacaq. Ona Vaqif Musayev və Akif Əmirəli köməklik edəcək. Dördüncü hakim funksiyasını Orxan Məmmədov yerinə yetirəcək. Qeyd edək ki, "Qarabağ" - "Neftçi" görüşü bu gün saat 18:30-da başlayacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500